www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 dekabr 2018-ci il Çərşənbə axşamı № 259 (7148) Qiyməti 60 qəpik

Xəbər

Bakıda "KamAZ"la ""Chevrolet" toqquşdu - 3 nəfər öldü

yazısı səh.14-də

Gündəm

Arif Əsgərovun "yoxa çıxan" baldızı oğlu həbs edildi




Rahib Hüseynov könüllü şəkildə məhkəməyə gəldi və qandallandı

yazısı səh.3-də

Gəncə hadisələri ilə bağlı cinayət işi məhkəməyə göndərildi

yazısı səh.6-da

Rusiyaya MDB xofu - Qərb bu regionu Kremldən ala bilər

yazısı səh.9-da

"Tiflis erməni avantürasına gedərsə, Gürcüstanda hakimiyyət dəyişə bilər" - politoloq

yazısı səh.7-də

"Cəhənnəm"in qapısını açan adam - Corc Buş...

yazısı səh.10-da

İrəvanla Xankəndi arasında görünməmiş gərginlik

yazısı səh.11-də

Ermənistandan aldıqları saxta sənədlə İsraili aldadan 40 həkim tutuldu

yazısı səh.10-da

Gürcüstanda marixuana çəkib Azərbaycana qayıdanların taleyi...

yazısı səh.12-də

Azərbaycanda ayaqqabı biznesi - araşdırma

yazısı səh.13-də

Havanı zəhərləyən obyektlər: onlar heç nəyə məhəl qoymur...

yazısı səh.12-də

Jurnalist Qaşıqçının ölümündə "WhatsApp" izi

yazısı səh.14-də

# ORDUMUZA NATO SİLAHLARI GƏLİR - BAKI MÜHARİBƏ STRATEGİYASINI GÜCLƏNDİRİR

Fransa Azərbaycana hava hücumundan müdafiə sistemləri verəcək - mühüm gəlişmə, işğalçıya şok xəbər; Bakı-Paris münasibətləri ılıqlaşır?..



yazısı səh.8-də

## Başı qırxılan gəlinin ailəsindən ilginc açıqlamalar

İşgəncəyə məruz qalan qadının bacısı "Yeni Müsavat"a danışdı; "Telefonunda bir qohumun şəkli olub, keçmiş əri onu tanımırdı, bu hoqqanı çıxardılar"; "Bacımı şərləyib, dərman verib, başına müsibət gətiriblər"

yazısı səh.4-də



*Pənah Hüseyn:* "Qarabağ Komitəsi siyasi müxalifət deyil"

yazısı səh.2-də



Sahib Məmmədov

QHT Şurasının üzvündən qrantlarla bağlı şok açıqlamalar

yazısı səh.6-da



Əflatun Amaşovu hədəfə alanlara sərt cavablar

yazısı səh.5-də



# Prezident Rusiyanın rəqəmsal inkişaf, rabitə və kütləvi media nazirini qəbul etdi

**Azərbaycan prezidenti İlham Əliyev dekabrın 3-də Rusiyanın rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskovu qəbul edib. Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskov Bakıda keçirilən XXIV "Bakutel" Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisində iştirak etmək üçün dəvətə görə minnətdarlığını bildirib.**

O, bu tədbirə paralel olaraq Bakıda Regional Rabitə Birliyi çərçivəsində region ölkələrinin rabitə nazirlərinin görüşü barədə məlumat verib. Qonaq qeyd edib ki, bu görüş və "Bakutel" sərgisi beynəlxalq əməkdaşlığın genişlənməsi işinə öz töhfəsini verəcək. Konstantin Noskov, eyni zamanda Rusiyanın və Azərbaycanın müvafiq nazirlikləri arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq, artıq iki ölkənin poçt xidmətlərinin səmərəli qarşılıqlı fəaliyyət göstərdiklərini bildirib və bunun Çindən Azərbaycan vasitəsilə Rusiyaya böyük həcmdə elektron ticarət məhsullarının göndərilməsi üçün imkan yaratdığını deyib. Eyni zamanda qonaq Azərbaycanla Rusiya mobil rabitə operatorları arasında əməkdaşlıqla bağlı danışıqların aparıldığını deyib.

Prezident İlham Əliyev Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskovun Bakıda keçirilən XXIV "Bakutel" sərgisində iştirakından məmnunluğunu ifadə edib, eyni zamanda, Regional Rabitə Birliyi çərçivəsində region ölkələrinin rabitə nazirlərinin toplantısının beynəlxalq əməkdaşlığın genişlənməsi baxımından əhəmiyyətini vurğulayıb. Dövlət başçısı Bakıda ənənəvi olaraq keçirilən "Bakutel" tədbirinə beynəlxalq marağın və iştirakçı ölkələrin sayının artdığını qeyd edərək, bu tədbirin telekommunikasiya və texnologiyalar sahəsində əldə olunan nailiyyətlərlə yaxından tanışlıq və təcrübə mübadiləsinin aparılması üçün yaxşı imkan yaratdığını bildirib.

Söhbət zamanı Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə, o cümlədən rabitə və kütləvi kommunikasiyalar sahəsində uğurla inkişaf etdiyi bildirilib və Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media nazirinin səfərinin əlaqələrimizin möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olunub.

Görüşdə iki ölkənin müvafiq qurumları arasında kiber təhlükəsizlik sahəsində əməkdaşlıq, təcrübə mübadiləsi, gələcəkdə qonşu ölkələrlə birgə layihələrin həyata keçirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# "Qarabağ Komitəsi siyasi müxalifət deyil"

**Pənah Hüseyn:** "Qarabağ məsələsinin daxili siyasi münasibətlər müstəvisində istifadə olunmasının qəti əleyhinəyik"



**Bir qrup ictimai-siyasi xadimin yaratdığı Qarabağ Komitəsinin müxalif birlik olub-olmamasına dair müzakirələr açılıb. Bu yöndə fikir mübadiləsinin olması təsadüfi deyil. Hələ 1988-ci ildə başlayan proseslərin nüvəsində Qarabağ dayanırdı. Faktiki olaraq o dövrdə ortaya çıxan və sonradan siyasi təşkilatlara çevrilən qüvvələr Qarabağ məsələsi üzərindən siyasi meydana atılıblar.**

Hazırda yaranan Qarabağ Komitəsinin qurucularının və ya üzvlərinin kimliyinə diqqət yetirsək, onların əksəriyyəti ya siyasi partiyaların təmsilçiləridir, ya da müxalif qurumların "şinel"indən çıxıblar.

Bütün bunlar tezliklə Qarabağ Komitəsinin müxalifət düşərgəsinin əsas güc mərkəzinə çevriləcəyi barədə iddiaları artırır. Habelə müxalif siyasi səhnədə ən aktiv fəaliyyəti Qarabağ Komitəsi aparır.

Maraqlıdır, Qarabağ Komitəsinin yaradıcıları özləri bu barədə nə düşünür?

**Komitənin qurucularından sayılan, sabiq baş nazir, AXP sədri Pənah Hüseyn "Yeni Müsavat"a açıqlamasında deyilən fikirlərlə razılaşmadığını söylədi:** "Qarabağ Komitəsi nə müxalifət partiyasıdır, nə də siyasi müxalifət fəaliyyəti ilə məşğul olmur. Birmənalı şəkildə komitə siyasi müxalifət deyil. Bu, Qarabağın azadlığı uğrunda - erməni işğalına qarşı milli, Azərbaycan cəmiyyətinin müqavimətini ifadə, təşkil və səfərbər edən bir hərəkatdır. Burada istər siyasi müxalifət, istər iqtidaryönlü nümayəndələr, istərsə də siyasətdə neytral yöndə dayanan şəxslər iştirak edirlər. Bu baxımdan Qarabağ Komitəsinin siyasi müxalifət kimi təqdim olunması kökündən yanlışdır. Çox təəccüblənirəm ki, bununla əlaqədar belə təqdimat xarakterli yazılar gedir. Komitənin bu məsələyə münasibəti əsasnaməsində, bəyanatlarında, 29 sentyabr mitinqinin qətnaməsində, qurumun ayrı-ayrı üzvlərinin çıxışlarında birmənalı şəkildə bildirilib. Biz Qarabağ məsələsinin daxili siyasi münasibətlər müstəvisində istifadə olunmasının qəti əleyhinəyik. Qarabağ Komitəsi bir təşkilat olmaqla yanaşı həm də bir ideyadır. İşğala qarşı milli müqavimətin ideyasıdır. Bu, istər toplum olaraq, istərsə də fərdi şəkildə Azərbaycan xalqının rəyinin ifadəsidir. Qarabağ Komitəsi olaraq bunu elan etmişik, bu, fəaliyyətimizin mahiyyətini göstərir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



## Fransada şagirdlər və təcili yardım sürücüləri də nümayişə qoşuldu

**Fransada "Sarı jilet"lər nümayişindən sonra təcili yardım sürücüləri nümayiş edib.**

AzərTAc xəbər verir ki, Parisdə 200-dən çox təcili yardım maşını və sürücüləri Milli Assambleyanın qarşısındakı "Concorde" meydanına toplaşıb. Onlar tibbi nəqliyyatın maliyyələşməsinə dair islahatın ləğv edilməsini tələb edirlər.

Ölkədə "Sarı jilet"lər nümayişi də davam edir.

Nümayişçilər prezident E.Makronun istefa verməsi ilə bağlı şüarlar səsləndirir, onun zənginlər üçün vergini ləğv etməsinə və kasıbların vergi ödəmələrinin həcmini artırmasına etiraz edirlər.

Fransada davam edən etiraz dalğasına məktəblilər də qoşulub.

«Trend»in məlumatına görə, bu gün ölkənin bir çox bölgəsində şagirdlər təhsil sistemindəki islahatlara etiraz edərək məktəb və liseylərə aparan yolu bağlayıb.

Nəticədə dekabrın 3-də ölkə ərazisində yüzə yaxın məktəb bağlı qalıb.

# "Qışın sərt keçməsi ehtimalı azdır"

**Hələ aylar öncədən qışda havaların şaxtalı, soyuq keçməsi ilə bağlı proqnozlar verilsə də, hələlik Bakıda bunun şahidi olmamışıq. Qış fəslinə keçidə sayılı günlər qalsa da, kəskin soyuqlarla qarşılaşmamışıq. Hazırda ölkə ərazisində qar yağıntısı, şaxtalar müşahidə olunmayıb. Bir həftənin hava proqnozlarına baxdıqda 10-11 dərəcə isti olduğunu görərik. Qonşu Rusiyada isə hava temperaturu mənfi 10-12 dərəcədir. Bir çox əyalətlərinə isə qar yağıb.**



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji maarifləndirmə və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Umayra Tağıyeva** mətbuata açıqlamasında son illərin məlumatına görə Bakıda və Abşeron yarımadasında, respublikanın rayonlarında şaxtalı günlərin və gecələrin sayının azaldığını bildirib.

Umayra Tağıyeva deyib ki, Avropa ortamüddətli proqnozlar mərkəzinin apardığı nəticələr göstərir ki, bizim regionda bu qış fəslində havanın temperaturu iqlim norma göstəricilərdən 0,5-1 dərəcə yuxarı olacaq:

"Bu, o deməkdir ki, qışın şaxtalı keçməsi ehtimalı azdır. Əlbəttə ki, qış fəsli ərzində ayrı-ayrı dövrlərdə arktik hava kütləri də daxil olacaq, temperatur aşağı enəcək. Amma bu dövrlərin çox davamlı olması pronozlaşdırılmır. Mülayim günlər soyuq, şaxtalı günlərlə müqayisədə üstünlük təşkil edəcək.

Biz baza illər olan 1961-1990-cı illər arasında müqayisə aparırıq. Eyni zamanda, 1991-2017-ci ilin məlumatlarını qiymətləndirmişik. Nəticədə müəyyən olunub ki, Bakı şəhərində yalnız dörd ildə 1964, 1969, 1972 və 1977-ci illərdə havanın orta minimal aylıq temperaturu mənfi 0,4-2,3 dərəcə şaxta təşkil edib.

1991-2017-ci illər arasında isə yalnız bir dəfə - 2008-ci ildə orta minimal aylıq temperatur mənfi 1,4 dərəcə şaxta olub. Ümumiyyətlə, qış fəsli üçün Bakı və Abşeron yarımadasında havanın orta temperaturu müsbət 3,2 dərəcədir. Ölkənin relyefinə və Xəzər dənizinin yaxın olmasına görə qış yumşaq keçir. Abşeron yarımadası üçün kəskin şaxtalar səciyyəvi deyil".

Ekoloq Telman Zeynalov isə "Yeni Müsavat"a açılamasında bu il qışın sərt keçəcəyini iddia edir: "Son dövrlərdə havaların belə keçməsi şimal küləyindən asılıdır. Düşünürəm ki, hələlik temperatur bu ay üçün normaldır. Hazırda Şamaxıda qar yağıb. Bu il havalar ötən ilə nisbətdə soyuq keçir. Əgər keçən il oktyabrın sonunda, noyabrın əvvəlində isti geyimlər geyinirdiksə, artıq oktyabrın ortalarından isti geyimlərə keçmişik. Bu il havalar ola bilsin ki, 1972-ci ildəki kimi çox sərt keçsin. Ola bilsin ki, Bakıya bir metrə yaxın qar yağsın. Bir sözlə, bu qış çox sərt keçəcək və ən azı 20-25 santimetr qar yağacaq".

❑ **MƏĞRUR, Musavat.com**


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**


## "Lotu Quli"nin ev dustaqlığında nə qədər saxlanacağı bilinmir

**Ötən həftə Türkiyədən Azərbaycana ekstradisiya olunan "Lotu Quli" kimi tanınan kriminal avtoritet Nadir Səlifov (İsmayılov) hazırda Bakıda ciddi nəzarət altında saxlanılır. Ən son məlumatlara görə, onun yanına yaxın çevrəsinə daxil olan çox məhdud sayda şəxslər buraxılır.**

Bu haqda redaksiyamızı bilgiləndirən mənbə deyib ki, N.Səlifovun nə vaxta qədər ev dustaqlığında saxlanılacağı bilinmir. Bu haqda ona və yaxınlarına məlumat verilmir. Nadir Səlifov ötən həftənin şənbə günündən Bakıya gətirilib. Verilən xəbərə görə, N.Səlifovun ekstradisiyasını yüksək rütbəli polis məmurlarından biri həyata keçirib və hazırda "Quli" ev dustağı şəraitində saxlanılır.

Qeyd edək ki, N.Səlifov Azərbaycan həbsxanalarında 22,5 il cəza çəkdikdən sonra ötən ilin oktyabr ayında azadlığa buraxılıb və dərhal da ölkəni tərk edərək Türkiyəyə yerləşib. Ancaq 2 aydan artıqdır ki, Rusiya Federasiyası onun barəsində çoxsaylı şikayətlər olduğunu əsas gətirərək, N.Səlifovun Rusiyanın hüquq-mühafizə orqanlarına təhvil verilməsini istəyirdi. Ancaq o, Azərbaycana gətirilib.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 259 (7148) 4 dekabr 2018

**Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sabiq sədri Arif Əsgərovun baldızı oğlunun məhkəməsi davam edir. O, digər qardaşı kimi dələduzluqda ittiham edilib.**

# Arif Əsgərovun "yoxa çıxan" baldızı oğlu həbs edildi

## Rahib Hüseynov könüllü şəkildə məhkəməyə gəldi və qandallandı




Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində külli miqdarda dələduzluqda təqsirləndirilən Rahib Hüseynovun cinayət işi üzrə sonuncu məhkəmə iclasında hakim Mirzə Xankişiyev onun həbs edilməsi ilə bağlı qərar çıxarmışdı.

Rahib Hüseynov son söz deməli, məhkəmə hökm çıxarmalı idi. Ancaq o, məhkəmədən yayınmışdı və axtarışa verilmişdi. Bununla bağlı onun valideynləri mətbuata açıqlamalarında ilginc ittihamlar da səsləndirmişdilər. Bildirmişdilər ki, R.Hüseynovu Arif Əsgərov oğurlatdırıb.

Dekabrın 3-də isə Rahib Hüseynov könüllü olaraq məhkəməyə gəlib və həbs edilib. Məhkəmədə hökm oxunmayıb və proses təxirə salınıb.

Xatırladaq ki, dövlət ittihamçısı Rahib Hüseynov barəsində polis nəzarətinə verilmə qətimkan tədbirinin dəyişdirilməsini, 10 il azadlıqdan məhrum edilərək məhkəmə zalında həbs edilməsini istəyib.

Rahib Hüseynov məhkəməyə gündəlik xərcləri və görülən işlərlə bağlı ayrılan məbləğləri qeyd etdiyi kitabları təqdim edib.

R.Hüseynov 2013-cü ildə həbs edilməzdən öncəyə qədər həmin kitablarda görülən işlərlə, alınan məbləğlərlə bağlı qeydlər yazıb. Hüseynov həmin 5 kitabda ayrı-ayrı şəxslərdən aldığı, iş üçün ayrılan milyonları qeyd edib. Həmin kitablarda xeyli sayda vəzifəli şəxslərin adının keçdiyi məlum olub. O kitablarda qeyd edilən məbləğlər 20-25 milyondur. Bu pullarla Arif Əsgərovun oğlu dəmir yolu üçün xaricdən avadanlıqlar alaraq dövlətə baha qiymətə satıb. Qazancdan isə pul aldığı şəxslərə də faiz verib.

Məlum olub ki, kitablarda adı keçən həmin şəxslər Arif Əsgərovun oğlu Elnar Əsgərova verdikləri pullar qarşılığında xeyli qazanc əldə ediblər. Pulların alınması və aylıq faizlərin verilməsinə, "qara mühasibatlıq" işinə də R.Hüseynov nəzarət edib.

R.Hüseynov 4 milyon 300 min manatlıq dələduzluqda ittiham edilir. Bundan başqa, R.Hüseynov vətəndaş Namiq Mehdiyevə də qarşı dələduzluq edib. Elan olunmuş ittiham üzrə R.Hüseynov özünü təqsirli bilmədiyini deyib.

Təqsirləndirilən Hüseynov deyir ki, ona qarşı irəli sürülən bütün ittihamlar əsassızdır. Çünki qeyd edilən bütün işləri Elnar Əsgərov edib. Ayrı-ayrı şəxslərdən külli miqdarda pullar alınması, onlara faizlər verilməsi, xaricdən gətirilən malların dövlətə baha qiymətə satılması və digər işlər Elnar Əsgərovun nəzarətində olub. Rahib Hüseynov isə Elnarın "qara mühasibat"lığına nəzarət edib. Pullar bir neçə dəfə Rahib Hüseynov vasitəsilə alınıb. Maraqlıdır ki, Elnar şəxsən özünün aldığı pulları geri qaytarıb, amma Rahib Hüseynov vasitəsilə ona çatdırılan pulları ödəməkdən imtina edir. Bildirir ki, həmin pullar Rahib Hüseynov tərəfindən ələ keçirilib.

Qeyd edək ki, R.Hüseynov bir neçə nəfərdən iş görmək adı ilə külli miqdarda pul almaqda ittiham edilir. O, Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda törəldildikdə) maddəsi ilə ittiham olunur. R.Hüseynovun digər qardaşı Emil Hüseynov da dələduzluqda ittiham edilib və onun barəsində Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Zeynal Ağayevin sədrliyi ilə 9 il azadlıqdan məhrum edilmə cəzası çıxarılıb və məhkəmə zalında həbs edilib.

Bu işdə də Arif Əsgərovun oğlu Elnar Əsgrovun adı keçir. O, bir müddət əvvəl ölkəni tərk etmişdi. Lakin sonradan Bakıya qayıdaraq məhkəmə prosesində şahid kimi ifadə vermişdi. O, bu işlərdə Hüseynov qardaşlarını ittiham edərək özünü məsuliyyətdən kənara qoymağa çalışmışdı.

Bildirək ki, Hüseynov qardaşları Arif Əsgərovun baldızının övladlarıdır.

Arif Əsgərov 2004-2015-ci illərdə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sədri, nəqliyyat nazirinin müavini vəzifələrində çalışıb. Ziya Məmmədov postunu itirən zaman o da vəzifəsiz qalıb.

❑ **İlkin MURADOV, Musavat.com**

# ABŞ və İran arasında raket gərginliyi

## Tehranın ballistik raket gücü Vaşinqtonu narahat edəcək səviyyəyə yüksəlir



**İran və ABŞ arasında ballistik raket mübahisələri yenidən şiddətlənib. Ötən həftə ABŞ dövlət katibi Maykl Pompeo İranın orta mənzilli raket sistemlərini inkişafı və həyata keçirilən raket sınaqlarını tənqid edib. Pompeo bildirib ki, İranın yeni ballistik raketləri müxtəlif növ döyüş başlıqları daşımağa qadirdir və İran ordusuna Avropanın bir hissəsi, eləcə də Yaxın Şərqin istənilən nöqtəsini vurmağa imkan verir.**

ABŞ dövlət katibi yazılı açıqlamasında qeyd edib ki, Tehranın raket sınaqları BMT TŞ-nin 2231 saylı qərarını pozmaqdır. Sitat: "İrana nüvə başlığı daşımaq qabiliyyətində olan ballistik raketlərlə əlaqədar bütün fəaliyyətləri dərhal dayandırmaq çağırışı edirik".

İran XİN rəsmi sözçüsü Bəhram Qasımi Pompeonun iddialarına cavab verib. XİN sözçüsü bildirib ki, İranın raket sınaqları "müdafiə məqsədlidir", ölkənin ehtiyaclarına görə həyata keçirilir və BMT TŞ-nin qərarlarına zidd deyil. Eyni zamanda Qasımi bildirib ki, BMT TŞ İranın raket fəaliyyətlərini məhdudlaşdıran hər hansı qərarı yoxdur. Əksinə, ABŞ BMT-nin təsdiqlədiyi nüvə anlaşmasından çıxmaqla BMT qərarlarına hörmətsizlik edib.

Məsələyə İran ordusu da münasibət bildirib. İran ordusu Baş Qərargahının rəsmi sözçüsü general Əbülfəz Şikarçı bildirib ki, İran ordusu həm raket sınaqlarını, həm də raket sənayesinin inkişafı layihələrini davam etdirəcək. General deyib ki, raket sənayesi İranın düşmənlərini yayındırmaq və müdafiə qabiliyyətini yüksəltmək məqsədilə inkişaf etdirilir. Eyni zamanda heç bir region dövlətini təhdid etmir. General əlavə edib ki, raket sınaqlarını və istehsalını davam etdirəcək, bu mövzuda heç bir ölkədən icazə almayacaqlar. İran ordusu rəsmisi deyib ki, İranın düşmənləri "xəta edərək" İrana qarşı hansısa addımı atsalar, buna görə heç zaman unutmayacaqları bir dərs veriləcək.

Yeri gəlmişkən, ötən ay ABŞ ordusu Mərkəzi Komandanlığı bəyan edib ki, İran Fars körfəzində gəmilərin hərəkətinə məhdudiyyətlər yaratmaq imkanına sahibdir. Ordudan verilən açıqlamada qeyd olunur ki, İrana məxsus ballistik raketlər qonşu ölkələrdəki limanlar və aerodromları məhv etmək gücündədir.

Qeyd edək ki, İslam respublikası raket istehsalını hələ 1990-cı illərdə İran-İraq müharibəsindən dərhal sonra başladıb. İlk vaxtlar əsasən qısamənzilli "Qrad", "Katyuşa" tipli raketlər istehsal olunub. İran bu raketləri Livan, Fələstin, Suriya, İraq kimi ölkələrə göndərir. Sonrakı illərdə İran hərbi sənayesi nisbətən uzaq mənzilli raketlər istehsal etməyə başlayıb. 2000-ci ildə 1200 km məsafəni hədəfə alan Şahab III raketini uğurla sınaqdan keçirib. 2003-cü ildə bu növ raketi sənaye miqyasında istehsal etməyə başlayıb.

2009-cu ilin may ayında isə İran ordusu ilk dəfə olaraq quru (bərk) yanacaqlı və mobil platforma üzərində quraşdırılmış "Siccil" raketini sınaqdan keçirib. Ən son olaraq İran ordusu 2 min km məsafəyə göndərilə bilən raketlərin sınağını keçirib. İran mediasının yazdığına görə, sınaq nisbətən uğurlu olub, daha dəqiqi, nəzərdə tutulan hədəf nöqtəsindən 8 metr yayınıb.

2016-cı ildə mediaya açıqlama verən İran ordusu baş qərargah rəisinin müavini Əli Abdullahi bildirmişdi ki, İran ordusu müdafiə xərclərinin 10 faizini araşdırma və tədqiqat sahəsinə ayırır. Bu isə ordunun yeni silah və texnika yaradılması üzərində çalışmasına imkan verir, silah sənayesinin inkişafını stimullaşdırır. Buna qədər İran ordusu "Qadir-F", "Siccil-1" və "Siccil-2" raketlərinin 2 min km məsafəyə göndərildiyini açıqlayıb. Ancaq son olaraq hədəfi dəqiq nişan alan raketin bunlardan biri olduğu və ya yeni bir raket olduğu bəlli deyil.

Xatırladaq ki, İran bu ilin yayında öz raketlərinin sınağını keçirib. İlk dəfə öz ərazisindən Suriyadakı İŞİD mövqelərini raket atəşinə tutub. Yerli agentliklərin məlumatına görə, İranın qərbində Kirmanşah əyalətindən atılan 6 raket təxminən 600 kilometr məsafədə Suriyanın şərqində Deyr əz-Zor şəhərində İŞİD mövqelərini hədəfə alıb. İran istehsallı orta mənzilli "Zülfüqar" adı verilmiş yer-yer tipli raketlər Deyr əz-Zorda İŞİD qərargahı və silah anbarlarını vurub. Bu hadisə bir mənada İranın raket sənayesinin gücünü göstərmək məqsədi daşıyıb.

Müşahidəçilərə görə, hazırda ABŞ-ı narahat edən Tehranın məhz birbaşa İsraili hədəfə almaq imkanında olan raketlərə sahib olmasıdır. Tehran hücuma məruz qalacağı təqdirdə okeanın o tayına raket atmaq imkanında olmasa da, daha yaxında yerləşən İsraili və eləcə də ABŞ-ın bölgədəki hərbi bazalarını hədəfə ala bilər. Məhz buna görə ABŞ prezidenti 2015-ci ildə imzalanmış nüvə sazişindən çıxmasının əsas səbəbləri sırasında İranın raket proqramının adını qeyd edib. Çünki İslam respublikasının raket gücü bölgədə ABŞ və müttəfiqlərini təhdid edən əsas silahdır.

İranlılar isə ötən ay Qəzzada İsrailin ən mükəmməl hava hücumundan müdafiə sistemlərindən olan "Dəmir Qübbə"ni yoxladılar. İsrailin mükəmməl hava hücumundan müdafiə sistemi Qəzzadan atılan yüzlərlə kiçik mənzilli raketlərə qarşısında aciz qaldı. Yaxın məsafədən və alçaqdan atılan bu raketlərin yalnız cüzi hissəsi havada məhv edildi. Bu hadisə İsrail ordusu üçün bir xəbərdarlıq oldusa da, rəqiblər üçün də bir sınaq oldu.

Tehran yeni raket gücü ilə bölgədə gücünü göstərməyə çalışır. Bu isə ABŞ və onun bölgə müttəfiqləri üçün təhdid yaradır, bu isə bir tərəfdən güc balansı yaratmağa xidmət edirsə, o biri tərəfdən savaş ehtimalını da yüksəldir.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**



## "Ombudsman seçilməsi üçün təqdimat vermək prezidentin səlahiyyətidir"

### Əliməmməd Nuriyev: "Əgər Elmira Süleymanovanın namizədliyini yenidən irəli sürmək mümkün olsaydı, yəqin ki, onun namizədliyi verilərdi"

**Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Elmira Süleymanovanın səlahiyyət müddəti 2017-ci il martın 5-də bitsə də yerinə hələ də yenisi seçilməyib. Azərbaycanın ilk ombudsmanı olan E.Süleymanova 16 ildən artıqdır bu mühüm vəzifəni həyata keçirir.**

**Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, hüquq müdafiəçisi Əliməmməd Nuriyev** "Yeni Müsavat"a bildirdi ki, "İnsan Hüquqları üzrə Müvəkkil haqqında" Qanuna görə, ombudsman seçilməsi üçün Milli Məclisə təqdimat ölkə prezidenti tərəfindən təqdim edilir. Təqdimatda üç namizədin adı yer alır. Həmin üç nəfər arasından parlament birini ombudsman seçir. Qanunvericilikdə dəyişikliklər oldu. Bu dəyişikliklər nəticəsində də yeni ombudsman seçilənə qədər əvvəlki müvəkkil öz səlahiyyətlərini saxlayır. Elmira Süleymanova hazırda qanunun bu tələbinə uyğun olaraq ombudsman səlahiyyətini həyata keçirir. Yeni ombudsman seçilənədək belə olacaq: "Qanunvericilikdə qeyd olunmayıb ki, ombudsmanın səlahiyyət müddəti bitikdən sonra ən uzağı hansı müddətə qədər yeni ombudsman seçilməlidir.

Elmira Süleymanovanın yerinə kimin seçiləcəyi məsələsinin tez-tez medianın gündəminə çıxması da təbiidir. Ombudsman İnstitutu çox mühüm institutdur. İnsan hüquq və azadlıqları ilə bağlı məsələyə nəzarət etməklə yanaşı, insan hüquq və azadlıqlarının pozulmasının qarşısının alınmasında mühüm rol oynayır. Məhz ona görə bir çox hallarda cəmiyyətin diqqətində olur. Eyni zamanda Elmira xanımın səlahiyyət müddətinin başa çatması və yeni ombusmanın hələ seçilməməsi də bu mövzunun ara-sıra aktuallaşmasının səbəblərindən sayıla bilər. Yeni ombusmanın seçilməsi üçün təqdimat verilməsi isə cənab prezidentin səlahiyyətlərinə aiddir".

**Ə.Nuriyev qeyd etdi ki, Elmira Süleymanova Azərbaycanın ilk ombudsmanıdır və uzun müddətdir fəaliyyətdədir:** "Elmira Süleymanova enerjili insandır və işlədiyi müddətdə xeyli işlər görüb, çox gərgin fəaliyyət həyata keçirib. Tükənməz enerjisi, fəaliyyəti, təcrübəsi, yeni ombudsman seçilənə qədər vəzifəsinin icrasına icazə verilməsi onun öz vəzifələrini icra etməsini şərtləndirir. Güman edirəm ki, hələ Elmira Süleymanova ombudsman vəzifəsinin icrasını davam etdirəcək. Onun fəaliyyətinin davam etdirilməsi ilə bağlı hər hansı bir problem yoxdur. Yeni ombudsmanın nə zaman seçiləcəyinə gəlincə, prezident nə zaman təqdimat versə, şübhəsiz ki, Milli Məclis yeni ombudsmanı seçəcək".

**Bəs Azərbaycanda ombudsman olmağa kifayət qədər biliyi, bacarığı, təcrübəsi olan şəxslər varmı?**

**Əlməmməd Nuriyev bildirdi ki, Azərbaycanın 10 milyon əhalisi var və ölkədə bu vəzifəyə layiq olan kifayət qədər kadrlar var:** "Əvəzedilməz insan yoxdur və ombudsman da əvəz edilə bilər. İstər ombudsman, istər digər vəzifələrdə işləməyə Azərbaycanda çoxlu sayda potensiallı şəxslər mövcuddur. Hər kəsin müəyyən potensialı var və o potensialı üzə çıxarmaq üçün şərait olanda bir çoxları bunu bacarır, vəzifəsini yüksək səviyyədə icra edir. Əgər Elmira Süleymanovanın namizədliyini yenidən irəli sürmək mümkün olsaydı, yəqin ki, onun namizədliyi verilərdi. Sadəcə olaraq, qanunda dəyişiklik bunu istisna edir".

**Qeyd edək ki, yeni ombudsman ola biləcək şəxslərdən biri kimi Əlməmməd Nuriyevin də adı indiyə qədər mediada çəkilib. Ə.Nuriyev qeyd etdi ki, ona bu barədə hər hansı formada təklif olmayıb:** "Kimin ombudsmanlığa namizədliyinin verilməsi cənab prezidentin səlahiyyətindədir. Bu məsələ ilə bağlı danışmaq tərəfimdən doğru olmaz. Prezident kimləri layiq bilsə, həmin şəxslərin də namizədliyi təqdimatda veriləcək. Milli Məclis isə üç namizəddən birini ombudsman seçəcək. Bunun nə zaman olacağını da mən söyləyə bilmərəm".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

## Başı qırxılan gəlinin ailəsindən ilginc açıqlamalar

### İşgəncəyə məruz qalan qadının bacısı "Yeni Müsavat"a danışdı; "Telefonunda bir qohumun şəkli olub, keçmiş əri onu tanımırdı, bu hoqqanı çıxardılar"; "Bacımı şərləyib, dərman verib, başına müsibət gətiriblər"

**Sosial şəbəkələrdə əri tərəfindən başı qırxılan gənc qadının videosu yayılıb. Kişi həyat yoldaşının başını qırxıb, sonra isə onu videoya çəkərək sosial şəbəkədə yayıb.**

**Elnur Həsənov ad-soyadlı kişi bu addımı qadının xəyanətini aşkarladığına görə atdığını, qadının isə Mingəçevirdə yaşadığını iddia edib.**

**Musavat.com hadisə ilə bağlı saçı qırxılan qadının ailə üzvlərindən biri ilə danışıb. O, baş verən hadisənin mediaya yanlış təqdim edildiyini, məsələnin əslinin başqa cür olduğunu deyib.**

- Bu hadisə Rusiya ərazisində, Stavrapolda baş verib. Sentyabr ayında olub. Bunu yayanlar da işin əslini bilmirlər. Bizim də xəbərimiz olmayıb belə bir videonun olmasından. Bilsəydik, bacımı bura gətirəndə onu birbaşa polis bölməsinə aparar və belə bir videonun olmasından şikayət edərdik. Sadəcə, onların nikahı Rusiyada bağlanıb. Ona görə də uşağı ala bilmirik. O vaxt da polisə müraciət etmədik. Düşündük ki, özləri uşağı qaytararlar.

**- Xəyanət iddiasının arxasında nə dayanır? Bir əsası varmı?**

- Mənim bacım 5 ildir ki, evli idi. Cəmi 2 ilini yoldaşı ilə yaşayıb. Qalan 3 ili isə anasının yanında olub. Həmin müddətdə onlar birgə yaşamayıblar. Ayrılmaq ərəfəsi idi. Bacım onunla yaşamaq istəmirdi. Əri və ailəsi axırıncı dəfə gəldilər bizə, dedilər ki, qızı aparaq, ailəsi dağılmasın, guya oğlan ailəsini istəyir. Dil tökdülər, minnətlə-xahişlə qızı apardılar. Bir həftə içərisində bir uydurma hekayə düzəltdilər. Guya bacımın həyatında kimsə olub, bir insanla danışıb. 3 il bu insanın yanında yoldaşı, qayınanası olmayıb. Heç nə bilmədən, əllərində sübut olmadan, telefonda nəsə bir şəkil görməklə bir insanı bu vəziyyətə salmaq olar? Sadəcə, onlar düşünüblər ki, ayrılandan sonra bacım başqa ailə də qura bilər, gəncdir. Onlar bu ehtimalın qarşısını almaq üçün bacımı bu vəziyyətə qoydular, adını ləkələdilər, belə bir hoqqa çıxardılar. Bu ailədə bir gəlin xeylağı yoxdur. Qayınanasının üç oğlu var, iki oğlu da iki dəfə evlənib. Mənim bacım da o kişinin ikinci həyat yoldaşı olub. Ona görə də istəmirdilər ki, oğlanın ikinci ailəsi də dağılsın. Bundan başqa, biz onlarla qohum idik. Bilsəydik bunlar belə ailədilər, heç bacımın onunla evlənməsinə razı olmazdıq. Sadəcə, düşündük ki, bu insanın birinci evlilik həyatı alınmayıbsa, bu, onun pis adam olması demək deyil. Yanılmışıq demək ki...

**- Bacınızı o vəziyyətə qoyub sizin yanınıza göndərəndə ailəniz bu məsələni aydınlaşdırmağa çalışdımı? Qarşı tərəf sizə nə dedi?**

- Telefonda çoxdan olan bir şey olub. Tanımadığı bir insanın şəklini görüb. Bu şəkil bizim qohuma aid idi. Bu ailə heç bizim qohumları da yaxşı tanımır. Tanımadığı üçün də onun telefonunda köhnədən qalan qohum şəklinə görə bu cür hoqqa çıxarıblar. Bu adamlar Rusiyada yaşayırlar, buradakı qohumlarla da əlaqələri yoxdur. Oğlan özü də içirdi, elə içkili vəziyyətdə



olanda bu hadisə baş verib. Bacımın əlindən telefonunu alıb, içindən kartı çıxarıb, taxıb kompüterə. İçindəki fotolara baxanda qohum oğlanın fotosunu görüb. Anası da deyib ki, mən bu oğlanı tanımıram, sənin arvadın gəzir, onu cəzalandırmaq lazımdır.

**- O videoda əli görünən, səsi eşidilən qadın bacınızın qayınanasıdır?**

- Bəli, odur. Bu hadisənin baş verməsinə birbaşa anası səbəbkardır. Saçının qırxılmasının təşəbbüskarı da anası olub, o, həll edib bu məsələni. Bacımın əl-qolunu bağlayıblar, yataq otağına sürükləyiblər, saçını qayçı ilə kəsiblər, özünə də xəsarətlər yetiriblər. Bacım özünü pis hiss edəndə isə ona nəsə dərman veriblər. Bacım özündə olmayıb, huşsuz olub. Danışa bilməyib, demək olar ki. Fikir vermisizsə, o videoda da tam hərəkətsiz, key vəziyyətdədir. Danışa bilmir, söz deyə bilmir. Hərəkətlərini belə idarə edirlər, çünki dərmanın təsirindən anlaqsız vəziyyətdə olub.

**- Bəs bu video niyə indi yayılıb? Üstəgəl, iddia var ki, videonu bacınızın keçmiş əri yaymayıb...**

- Necə özü yaymaya bilər ki? Oğlanın özü çəkə-çəkə deyir ki, mən bu videonu İnstagramda paylaşacam. Belə bir videonun olmasından bizim ailədə heç kimin xəbəri olmayıb. Bilsəydik, onun yayılmasının qarşısını alardıq, sildirərdik. Nə haqla bizim bacımızı belə bir vəziyyətə çatdırırlar? Bu, insanlıqdan kənar hadisədir. Bir qadını şərləyib, dərman verib, anlaqsız vəziyyətə salırlar, sonra da videosunu çəkib yayırlar. Bacım heç özü də xatırlamır ki, onun belə bir videosunu çəkiblər. Görün nə vəziyyətdə olub.

**- Səhv etmirəmsə, bacınızın bir qızı var. Uşağı da atasıgil alıb, özləri ilə saxlayırlar. Doğrudur?**

- Valideynim bacımı götürüb gətirmək istəyəndə onlar uşağı götürüb qaçırmışdılar. Vermədilər bizə. Bacım pis vəziyyətdə idi. Anam da xəstə insan idi, şoka düşdü. Orada heç kim polis bölməsinə müraciət edə bilmədiyi üçün bacımı da götürüb Azərbaycana gətirdilər. Dedik ki, bacımın səhhəti düzəlsin, yaraları sağalsın, sonra bu söhbətin üstünə düşərik. Əslində ilk gündən bu söhbətin üstünə düşmüşdük. Amma Azərbaycan qanunlarında elə bir şey yoxdur ki, Rusiya vətəndaşının əlindən alıb uşağı geri qaytarasan. Bizə deyildi ki, gedib şikayətinizi orada verə bilərsiz. Ümumiyyətlə, bu işin üstünə düşmək, məsələni bir neçə tərəfdən həll etmək üçün güclü maddi vəsait də lazımdır. Ekspert də görə bilərdi ki, mənim bacım bura gələndə hansı vəziyyətdə idi. Bədənində yaralar, döyülmüş vəziyyətdə, saçı qırxılıb, qayçının izləri... Biz onu çətinliklə sağaltdıq, düzəlməsinə kömək etdik.

**- Video yayılandan sonra qarşı tərəflə danışmısızmı? Onlar nə deyirlər, bu videonu kim və niyə yayıb?**

- Video yayılandan sonra onun yoldaşına zəng elədik. Dedi ki, "mənim heç xəbərim də yoxdur bu videonun yayılmasından. Bu videonu çəkən qardaşım olub, yəqin ki, yayan da o olub". Bunu deyəndən sonra qardaşını da, ailəsini də ən ağır söyüşlərlə söydü, onların başına oyun gətirəcəyini dedi. Eyni zamanda əmisi oğlanlarından da şübhələndiyini dedi. Dedi, əgər bu video bizim tərəfdən yayılıbsa, bunu edənləri özüm öldürəcəm. Biz də dedik ki, siz bizə bu videonun olması, əlinizdə guya ki, belə bir sübut olması ilə bağlı nəsə desəydiz, biz də oturub danışardıq, məsələni aydınlaşdırardıq. Ortada ciddi yanlış anlaşılma olduğunu sübut etmək çox asandır. Amma onlar bizə heç nə demədilər.

**- Redaksiyamıza verilən məlumata görə, bacınızın əri Kislovodskidə bir rus qadını ilə qeyri-rəsmi nikahda olub. Bacınızla evli olduğu, amma onu Azərbaycanda qoyduğu vaxt özü Rusiyada evli olubmu?**

- Bəli, biz də bu barədə gec xəbər tutmuşuq. Çünki bu adam 3 ildir bacımın yanında olmayıb. Ayrı-ayrı yaşayıblar, ər-arvad münasibətləri olmayıb. Çox güman ki, oradakı arvadı da qısqanclıq zəminində deyib ki, sənin arvadın varsa, onu boşamalısan, bu cür bəhanə ilə yola salaq getsin. Başqa söhbət ola bilməz. Üç ildir ki, bu kişi nə övladı, nə də həyat yoldaşı ilə əlaqə saxlayıb. Ona ailəsi kimi baxmayıb.

**- Bacınızın keçmiş əri yaşda ondan böyük olub?**

- Bacımın 18 yaşı olanda o şəxslə evləndirilib. Oğlanın hazırda 40 yaşı var. Aralarında 12 yaş fərq var.

**- Bəs o kişinin birinci ailəsi niyə dağılıb?**

- Onu da xəyanət iddiası ilə boşayıb. Həmin qadını da çox pis vəziyyətə salıblar. Ondan da bir övladı var. O qadına da alimenti özü yox, anası verir. Özünün guya maddi durumu zəif idi, anası onun əvəzinə aliment ödəyirdi.

**- Axı oğlanın Rusiyada böyük biznesi, güclü maddi durumu olduğu deyilir...**

- Xeyr, yanlış məlumatdır. Siz onlarla bircə dəfə danışsaz, görəcəksiz ki, necə ailədilər. Onlar əslən Gəncədəndirlər. Gedin, Gəncədə kimdən istəyirsiz soruşun, deyəcəklər ki, necə ailədirlər. Düzdür, özümüz də qohum olmuşuq, amma bilməmişik ki, belə ailədirlər. Qızımızı ona verəndə çox maraqlanmamışıq. Çox araşdırma aparmamışıq, ailəmizin ilk xeyir işi olub bacımın toyu. Düşünmüşük ki, yaxşı olar, qohumdur, hər halda.

**- İndi bacınızın durumu, iş-gücü necədir? Necə yaşayır, nə ilə dolanır?**

- Bacımın vəziyyəti yaxşıdır. Sadəcə, uşağına görə çox əzab çəkir. Vəziyyəti o qədər pis idi ki, intihar etmək istəyirdi. Yanında olduğumuz üçün qarşısını aldıq. Imkan vermədik. Hər bir insanın başına belə hadisələr, şər-böhtan gələ bilər. Amma ailəsi hər zaman arxasında dayanmalıdır. Biz də elə edirik.

**❑ Sevinc TELMANQIZI, Musavat.com**

YENİ MÜSAVAT
N 259 (7148) 4 dekabr 2018



# Əflatun Amaşovu hədəfə alanlara sərt cavablar

## "İrəvanda "Göy" məscid önündə şəkil çəkdirib, məsciddə namaz qılıb, çox yaxşı edib"

**Ötən həftə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Parlament Məclisinin iclasında iştirak etmək üçün Ermənistan paytaxtına gedən Azərbaycan nümayəndə heyətinin üzvləri əleyhinə sosial şəbəkələrdə sərt fikirlər yazılır. Hətta bir sıra hallarda bu münasibət tənqidin sərhədlərini aşaraq təhqirə keçir.**

Məlum olduğu kimi, qurumun iclasında iştirak edən Azərbaycan nümayəndə heyətində Milli Məclisin üzvləri Eldar Quliyev və Əflatun Amaşov olub. QDİƏT-nın baş katibi Asəf Hacıyev də iclasda iştirak üçün İrəvanda olub. Ancaq hücumlara daha çox məruz qalan deputat, Mətbuat Şurasının sədri Ə.Amaşovdur. Buna səbəb onun həm də İrəvandakı tarixi memarlıq abidəmiz olan "Göy" məsciddə baş çəkməsidir. Azərbaycanın tarixi şəhərindəki məsciddə olan Ə.Amaşov əməkdaşımıza deyib ki, məsciddə Azərbaycanımız, həmçinin tarixi torpaqlarımızın işğaldan azad olunması üçün dualar edib və burada qəbahətli heç nə görmür.

Bütün bunlara rəğmən İrəvana gedən deputatların, xüsusilə də Ə.Amaşovun hücumlara məruz qalması suallar doğurur. Düzdür, Ermənistan işğalçı ölkədir və bu ölkə ilə diplomatik və ya digər sahələrdə əlaqələrimiz yoxdur. Ancaq beynəlxalq təşkilatların çətiri altında keçirilən tədbirdə iştirakdan imtina etmək Azərbaycan üçün məqbul sayılmır. Ə.Amaşov və digər deputatlarımız da məhz bu prinsipə uyğun şəkildə İrəvana gediblər. Keçirilən tədbirdə bayrağımızın masa üzərinə tərsinə qoyulması da geniş müzakirə olundu və Ə.Amaşov bunu da təkzib etdi. Amma yenə də müzakirələr bitmir. Ə.Amaşov İrəvana getməklə, yaxud məscidi ziyarət etməklə yanlışmı addım atıb, Mətbuat Şurasının İdarə Heyətinin üzvləri bu haqda nə düşünür, deyə, onlara müraciət etdik.

**"Teleqraf Holdinq"in rəhbəri Aynur Camalqızı "Yeni Müsavat"a dedi ki, Azərbaycan nümayəndə heyətinin QDİƏT PA-nın İrəvanda keçirilən 52-ci plenar sessiyasında iştirakı bəzilərinin "düşmən ölkəyə getməmək xəyanətdir" kimi absurd iddialarının əksinə olaraq, diplomatik baxımından böyük uğur hesab olunmalıdır:** "Çünki sessiyanın gedişini izləyən hər kəs gördü ki, İrəvanda, işğalçı ölkənin özünə paytaxt etdiyi Azərbaycan şəhərində azərbaycanlı deputatlar Ermənistana lazımi cavablar verdilər. Xüsusilə ermənilərin QDİƏT PA-nın 25 illiyi münasibətilə yubiley medalı vermək istəyi iflasa uğradı. Azərbaycan, o cümlədən Gürcüstan, Ukrayna və Türkiyə də ermənilərin medalından imtina etdi. Məlumdur ki, bu ölkələrin medaldan imtina etməsində Azərbaycan faktoru böyük rol oynayıb. Təsəvvür edin, Azərbaycan nümayəndə heyəti İrəvana getməsəydi nə olacaqdı? Şübhəsiz ki, ermənilər diplomatiya sahəsində bundan Azərbaycana qarşı istifadə edəcəkdi. Böyük ehtimalla, Ermənistanın "medal oyunu" da baş tutmuş olacaqdı. Yeni məsələyə səthi yanaşmaq doğru deyil, dünyanın indiki şərtlərində bir çox şey işğalçının qarşısında belə əsəblərin cilovlanması və diplomatik manevrlərin edilməsi ilə həll olunur. Necə ki, Azərbaycan nümayəndə heyəti bunu İrəvanda etdi. Sessiyada QDİƏT PA-nın sədri, azərbaycanlı deputat Asəf Hacıyevin medal məsələsində israr edən Ermənistan parlamentinin spikeri Ara Babloyana cavabı da hər şeyi çılpaqlığı ilə ortaya qoydu".





**A.Camalqızının fikrincə, bu, Azərbaycanın işğalçı ölkəni öz evində məğlubiyyət etməsi idi:** "Lakin bundan daxili siyasətdə sui-istifadə etmək istəyənlər səthi mövqelərlə bu uğuru ört-basdır etməyə cəhd göstərir. Və bu "daxildən zərbə" vurmaq oyununu da nümayəndə heyətinin tərkibində İrəvana gedən, Milli Məclisin deputatı, Mətbuat Şurasının sədri Əflatun Amaşovun üzərində cəmləşdirməyə çalışırlar. Mən bunu daxili siyasətdə sui-istifadə adlandırıram, çünki məsələni gündəmə gətirən və sosial şəbəkələrdə dövr etdirənlər iqtidara, bir çox hallarda dövlətə qarşı çıxan qruplardır. Təbii ki, bu prosesdə hisslərə qapılıb iştirak edənlər də var, lakin məsələnin kökü məhz həmin qruplardan qaynaqlanır. Əslində Əflatun Amaşova hücum bir şəxsin üzərindən Azərbaycan iqtidarına hücumdur. Bu şübhəsiz belədir".

**Holdinq rəhbəri qeyd etdi ki, Əflatun Amaşovun İrəvanda "Göy" məsciddə olması və dua eləməsi ən doğru və bəlkə də "informasiya müharibəsi"ndə ən mühüm detaldır:** "Hesab edirəm ki, Əflatun Amaşov tarixi torpaqlarımızda Allaha dua eləməsi ilə həm İrəvanın tarixi Azərbaycan torpağı olduğunu və erməni işğalına qədər tarix boyu burada müsəlmanların Allaha ibadət etdiyini dünyaya əyani şəkildə nümayiş etdirdi, həm də İslam aləminə müsəlman torpaqlarının işğalda olduğunu göstərdi. Bu gün Əflatun Amaşova və onun üzərindən Azərbaycan dövlətinə hücum edənlərin hansısa bu dövlət, bu millət üçün bunu edibmi?! Təbii ki, yox. Ona görə də deyilənlərə və yazılanlara əhəmiyyət verməməyin tərəfindəyəm".

**"Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli "Yeni Müsavat"a açıqlamasında Ə.Amaşovun üzərinə gedənlərə aşağıdakı arqumentlərlə cavab verdi:** "Sosial şəbəkələrdə, ayrı-ayrı internet resurslarında erməni təxribatlarına qarşı səssiz qalanların, bircə dəfə də olsun tutarlı, əsaslandırılmış movqe nümayiş etdirə bilməyənlərin, faydalı iş əmsalı "0"dan aşağı olanların indi də bütün keyfiyyətlərinə görə onlarla əks qütbdə dayanan bir Azərbaycan vətəndaşını - Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşovu hədəfə almaları məni qətiyyən təəccübləndirmir. Azərbaycanın işğal altında olan əraziləri ilə bağlı ucuz "qəhrəmanlıq" şoularını, Allaha şükür, bu günə qədər kifayət qədər görmüşük. Və bu təfəkkür bizə kifayət qədər ziyan vurur, siyasi texnologiyaları yaxşı bilən, iş görməyi bacaran adamları həvəsdən salır, bəzən isə ümumiyyətlə, iyrəndirir. Qarabağın azadlığına, erməni məsələsinə Akif Nağı təfəkkürü və ondan daha bəsit, bəzən qurşaqdan aşağı metodlarla yanaşılması həddən artıq ziyanlıdır".

E.Mirzəbəyli qeyd etdi ki, Ə.Amaşov İrəvanda keçirilən beynəlxalq tədbirə qatılıb və bu onun millət vəkili kimi görəvidir: "Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında Azərbaycanın maraqları var və ölkəmiz bu təşkilatın işində fəal iştirak etməklə öz siyasi və iqtisadi maraqlarını qoruyur. Əflatun Amaşov İrəvanda "Göy" məscidin qarşısında şəkil çəkdirib və məsciddə namaz qılıb və çox yaxşı edib. Bu məscidi dağıdanlara da, onu yenidən tarixi həqiqətləri təhrif etməklə bərpa edənlərə də oranın azərbaycanlılara məxsusluğunu, dindən siyasi məqsədlər üçün istifadə edənlərə İslamın Azərbaycan xalqı üçün siyasi manipulyasiya vasitəsi deyil, yüksək mənəvi dəyər olduğunu xatırladıb və çox doğru addım atıb. Onun qarşısındakı bayraqda mavi, yaxud yaşıl rəngin yuxarıda olmasından daha çox, bayrağın orada olması daha önəmlidir".

**MŞ İdarə Heyətinin üzvü əlavə etdi ki, bu məsələ ilə bağlı populist şüarlara da son qoymaq lazımdır:** "Mənim üçün Azərbaycan bayrağı adına, Azərbaycanı simvolizə edən hər hansı bir rəmzin Dağlıq Qarabağda, İrəvanda dalğalanması daha vacibdir, nəinki onun necə asılması. Qoy Azərbaycan əsgəri bayrağımızı Xankəndinə, Şuşaya sancsın, yaşıl rəng də yuxarıda olsun. Önəmli olan niyyətdir, əməldir. Ayıbdır, vallah. Utanın! Təhqirin, söyüşün iki başı var, bunu heç kim unutmasın. Azərbaycan üçün hər cür fədakarlığa hazır olan insanları bu qədər əxlaqsız üsullarla şərləmək, aşağılamaq heç bir çərçivəyə sığmır. Hesab edirəm ki, bu məsələdə Əflatun Amaşovu təkcə media cameəsi, vətəndaşlarımız deyil, hüquq da müdafiə etməlidir. Bu geniş status yazıb. İrəvan məscidinin azərbaycanlı xan tərəfindən tikilməsi, ermənilər tərəfindən dağıdılması, soydaşlarımızın orada necə işgəncələrə məruz qalması, məscidin niyə restavrasiya olunması barədə geniş izah yazıb, erməniləri vandalizmdə qınayıb. Paylaşdığı statusda heç bir boşluq qoymayıb ki, kimsə onu oxuyanda yanlış rəyə gəlsin. Bu baxımdan bu mövzuda Əflatun müəllimə qarşı yönəlik iradları oxuyanda bu rəyə gəlmək olur ki, bütün bunlar qərəzli xarakter daşıyır. Zatən Əflatun müəllimin İrəvan səfəri və ona verilən bəzi reaksiyalarda qərəz hissi özünü çox açıq bürüzə verir. Tərsinə asılmış Azərbaycan bayrağı şəklinin montaj edilib Əflatun müəllimin şəkli ilə uyğunlaşdırılması təhqir kampaniyasını başladanlarla qanunun dili ilə danışmaq lazımdır".

**Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli hesab edir ki, Ə.Amaşovun İrəvanda olub məscidi ziyarət etməsinə irad bildirənlərə iki istiqamətdə cavab vermək olar:** "Birinci tərəfi məsələnin ruh halıdır. Hər halda, özünü azərbaycanlı sayan hər bir şəxsin qəlbində Şuşa, Xankəndi, Cəbrayıl və başqa onlarla şəhərlərimiz kimi, bir İrəvan yanğısı, İrəvan həsrəti də var. Bu torpaqlar kimi, orada yaşamış və dünyasını dəyişmiş soydaşlarımızın, dədə-babalarımızın, ana-bacılarımızın ruhları da, məscidlərimiz də, dini inanclarımız da işğaldadır, narahatdır. Yaranmış ani fürsətdən istifadə edib burada hansısa təsadüfdən saxlanılmış abidəni, məscidi ziyarət etməmək, orada bir kəlmə Azərbaycan sözü işlətməmək, dua etməmək necə olardı?! Bu anın həyəcanını anlamaq üçün insanda milli ruh, milli düşüncə, yurd həsrəti olmalıdır. Əflatun Amaşova irad bildirənlər, görünür, bu ruhdan uzaqdırlar. Belələrinə Amaşovun nə üçün İrəvanda məscidə getməsini izah etmək üçün, gərək əvvəlcə onlara din nədir, iman nədir, milli ruh nədir, torpaq sevgisi, yurd həsrəti nədir deyə bir kurs keçəsən! Əgər bir ömür boyu bunu anlamayıblarsa, indi bizim bir müsahibədə anlatmağımız yetməz, deyə düşünürəm".

**M.Ələsgərli bildirdi ki, məsələnin ikinci tərəfi siyasi təbliğatla bağlıdır:** "Guya ki, Əflatun müəllimin İrəvanda varlığını qorumuş tək məscidə getməsi, dua etməsi "İrəvanda müsəlman məscidi qorunub saxlanılır" deyə rəy formalaşdırır. Köküdən yanlışdır. Çünki Əflatun müəllim həmin şəklin yanında dərhal anlaşıldı, ifşa olundu. Aşkar göründü ki, kimsə Mətbuat Şurasının sədrinə qarşı qərəzli kampaniya aparır".

**"Azadinform" İnformasiya Agentliyinin baş redaktoru Niyaz Niftiyev isə bildirdi ki, Əflatun Amaşova qarşı sosial şəbəkələrdə aparılan kampaniya etik deyil:** "Əvvəla, mövqeyindən və statusundan asılı olmayaraq tənqid üçün yetərli əsas olmalıdır. Təəssüf ki, bəziləri bu "əsası" bilərəkdən formalaşdıraraq sosial platformalarda aşağılayıcı statusların yayılmasına şərait yaradırlar. Status yazanların bəlkə də çoxu Əflatun Amaşovu tanımır, sadəcə, onun haqqında yazılanlara səviyyələrinə uyğun reaksiya verirlər. Məsələnin mahiyyəti İrəvanda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının 52-ci plenar sessiyasında iştirakdırsa, burada qəribə heç nə yoxdur. Əflatun Amaşov millət vəkilidir və ölkəmizi sözügedən qurumda təmsil edən deputatlardan biridir. Qurumun iclasları harada keçirilsə, Azərbaycan nümayəndə heyəti də orada iştirak etməlidir".

**N.Niftiyev qeyd etdi ki, tənqidlərə səbəb Azərbaycan bayrağının tərs qoyulmağıdırsa, burada da yanlışlıq var:** "Əflatun Amaşov özü dərhal açıqlama verdi və fotolar paylaşdı ki, İrəvanda keçirilən tədbirdə onun qarşısındakı bayraq heç də tərsinə qoyulmayıb. İrəvandakı "Göy" məscidi ziyarət etməsində problem axtarırlarsa, yenə də yanılırlar. Mən belə qənaətdəyəm ki, Əflatun Amaşov bir jurnalist kimi İrəvana səfərindən istifadə edərək şəhəri gəzib qeydlər aparmalı və Azərbaycan ictimaiyyətinə bu barədə dolğun informasiyalar verməli idi".

**❑ E.PAŞASOY, "Yeni Müsavat"**



# 18 il işləyib kasıb ölən nazirlər və 18 günə milyonçu olanlar

**Xalid KAZIMLI**

**Son aylarda musavat.com saytında SSRİ dönəminin məşhur ictimai-siyasi xadimlərinin, sənət adamlarının həyatı haqqında ibrətamiz və çoxlarının bilmədiyi detallardan ibarət tarixi oçerklər dərc olunur.**

İndiyədək dərc olunan həmin oçerklərdə iki leytmotiv özünü bariz şəkildə göstərir: 1. Sovet liderlərinin bir çoxunun nə qədər qaniçən, tamahkar, mərdimazar, amansız olması; 2. Sovet dövründə, xüsusilə də Stalindən sonrakı dönəmdə yetişən partiya liderlərinin bir çoxunun gözütox, prinsipial, əqidəli olması.

Təsəvvür edin, 18 il Moskva kimi, dünyanın ən böyük 3-4 meqapolisindən biri olan şəhərin rəhbəri vəzifəsində çalışmış adam - Viktor Qrişin pensiyasının 5-10 rubl artırılmasını təmin etmək üçün sosial təminat şöbəsində növbə gözləyərkən ölüb.

Başqa ölkələrdə və başqa zamanlarda belə bir vəzifəni cəmi 18 gün tutan adam milyonçu olar, bir neçə ildən sonra isə - milyarder.

Yaxud SSRİ-nin baş naziri, parlamentin sədri olmuş adamlar ömürlərinin sonuna qədər üçotaqlı mənzildə yaşayıblar, sadə həyat tərzi keçiriblər. Parlament sədri Podqornının yanında katib vəzifəsini tutan Georqadzenin isə milyonluq sərvəti üzə çıxıb. Sədr kasıb, katib - milyonçu....

Bu, onu göstərir ki, sovet dönəmində yırtıcı liderlərlə yanaşı qanunpərəst, gözütox, aylıq məvacibi ilə dolanan, korrupsiyaya bulaşmayan yüksək mənsəbli kadrlar da olub.

Təəssüf ki, o dönəmdə əlini xalq malına uzatmayan liderlərin siyasi varisləri indi başqa düşüncədədir. İndiki məmurların demək olar ki, hamısı varlıdır və heç biri idealist deyil. Tam əksəriyyətinin biznes şəbəkəsi var.

Həm də bu təkcə SSRİ-nin tərkibinə daxil olan 15 müttəfiq respublikanın hamısında belədir. Bəlkə bir qədər Baltikyanı respublikaları bu xüsusda istisna etmək olar. Şərqi Avropanın keçmiş sosialist respublikalarının (Polşa, Çexiya, Macarıstan, Bolqarıstan, Slovakiya, Rumıniya və b.) rəhbər kadrları da bizneslə siyasət sahəsini "uğurla" çulğaşdıraraq böyük varidata sahib olublar.

Yüksək mənsəbli şəxslərin korrupsiyaya nə dərəcədə uğramalarına misal olaraq təkcə son 3 ildə ölkəmizdə keçirilən qalmaqallı məhkəmə proseslərini xatırlatmaq kifayətdir.

Mediada "MTN işi", "Rabitə işi", "Beynəlxalq Bank işi" şərti adı altında xəbərləri verilən məhkəmə işlərində yüksək vəzifəli şəxslərin dövlətin (xalqın) milyardlarını necə taladıqları, özlərinə necə dəbdəbəli həyat şəraiti yaratdıqları təfərrüatıyla üzə çıxdı.

Məlum oldu ki, onlar min il gen-bol xərcləsələr də tükənməyəcək miqyasda varidata sahibdirlər. Beləlri, əlbəttə ki, Kosıgin, Qrişin və ya Podqornı kimi təqaüd dərdi çəkməyəcəklər.

Ayrı-ayrı nazirlərin, bank rəhbərinin malik olduğu sərvətin miqyası bu gün belə tam şəkildə ortada deyil. Vaxtaşırı yeni-yeni detallar açıqlanır.

Sanki bu ölkə və onun sərvətləri o şəxslərə atalarından miras qalıbmış. Kimin dövlət büdcəsindən qoparmağa, çırpışdırmağa imkanı çatırmışsa, tərəddüd etmirmiş.

Bu, hələ hədlərini aşanlar, buna görə də ifşa olunanlardır. Papaq altda nə qədər korrupsioner var... Onların bir çoxu işlərini ehtiyatlı tutduqlarından, necə deyərlər, "gözütox korrupsioner" olduqlarından ifşa olunmayacaqlar. Bəlkə də təqaüdə çıxandan sonra el-aləmə "necə təmiz işlədiklərini" göstərmək üçün gedib bankomatdan kartla pensiya çəkəcəklər.

Azərbaycan gerçəkdən də zəngin, sərvətləri bol ölkədir ki, bu qədər talançılığın, vur-həşirlə aparılan yağmalamanın qabağında dözüb-dayana bilir. Bir az kasıb ölkə olsa və bu qədər şiddətli talamaya məruz qalsa, çökərdi.

Hazırda durum budur: biz ifşa olunmuş oliqarx-məmurların, mafioz nazirlərin dünyanın dörd bir yanında xərclədikləri pul-paraya dair yazıları, rəsmi ittihamnamə və ifadələri oxuyuruq və mat qalırıq.

Bu məlumatların fonunda, əlbəttə ki, sovet dövrünün təmiz liderlərinin, eləcə də o dönəmdəki nisbi dürüstlüyün xiffəti çəkiləcək.

Sovet dövləti nə qədər amansız, qəddar, antibəşəri bir rejimə malik olsa da, xalqın var-dövlətini talayanları, xalqı dövlətdən narazı salan korrupsionerləri "ağırlaşdırıcı halda" sözü keçən maddələrlə mühakimə edir və ağır cəza kəsirdi.

# QHT Şurası üzvündən qrantlarla bağlı şok açıqlamalar

## Sahib Məmmədov: "Mühacirlərin əldə etdikləri vəsaitlər qrant adlandırıla bilməz"

**Beynəlxalq qurumlardan əldə olunan qrantlar hər zaman müzakirə mövzusudur. Son günlərdə bu məsələ bir daha gündəmə gəlib. Buna səbəb də Avropadakı bəzi azərbaycanlı mühacirlərin müxtəlif yollarla qrantlar almaq üçün dəridən-qabıqdan çıxmalarıdır.**



Azərbaycan daxilində də qrantlar alan QHT-lərin bunu necə əldə etdikləri, şəffaflığı qorumaq üçün nələr etməli olduqları barədə müxalif müzakirələr gedir. Qrant alan QHT rəhbərinin əldə etdiyi məbləğdən necə istifadə etməli olduğu, bu barədə hesabat verməyinin vacibliyi haqqında da ciddi müzakirələr açılıb. 2013-cü ildən etibarən ölkəyə daxil olan qanunsuz qrantların qarşısının alınmasına baxmayaraq, hələ də bu cür halların baş verməsi də gedən müzakirələr sırasındadır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü Sahib Məmmədov "Yeni Müsavat"a bildirdi ki, qrant kimi təqdim olunan pulların heç də hamısı qrant deyil:** "Məsələn, gizli məqsədlər üçün əldə olunan məbləğlərin adını nə qoyursansa qoy, onlar qrant deyil. Qrant verən təşkilatları əsasən iki qrupa bölmək olar. Əgər xarici donor mənbələrini göstərsək, onlar ya dövlət, ya da fərdi donorlar olur. Bəzən görürsən ki, özəl donorların adı özəldir, aldıqları vəsaitlərin hamısı dövlət vəsaitləridir. Amerikada belə özəl donorların sayı kifayət qədərdir. Onlar bütün vəsaitləri ABŞ Dövlət Departamentindən alırlar. Donorlar da iki qrupa ayrılır. Dövlətin içərisindəki proseslərə legitim yolla müdaxilə edənlər, bir də qeyri-legitim yollarla müdaxilə edənlər. İkinciləri ABŞ timsalında göstərsək, Amerikanın Beynəlxalq İnkişaf Agentliyinin adını qeyd etmək olar. Onlar adətən legitim yollarla, leqal fəaliyyət göstərməklə, ölkələrdə diplomatik ofislər açmaqla ölkədaxili proseslərə ABŞ maraqlarını legitim yollarla sırıyırlar. Qeyri-legitim yollarla ölkələrdə gedən proseslərə də müdaxilələr edilir. Bunlardan heç birinə aid olmayan beynəlxalq kassalar da var. Bu kassaları hökumət formalaşdırır. Müxtəlif ölkələrin xüsusi xidmət orqanları bu kassaları formalaşdıra bilər. Gizli qüvvələr də formalaşdırılır. Məsələn, ermənilərin uzun illərdir belə qeyri-gizli kassaları var. Erməni maraqlarının dünyada irəli sürülməsi üçün fəaliyyət aparırlar. Türkiyə və müstəqillikdən sonra Azərbaycan əleyhinə təbliğat maşınını saxlamaq üçün də həmin kassalardan istifadə olunur. Avropada bəzi mühacirlərin əldə etdikləri vəsaitlər qrant adlandırıla bilməz. Onlar ya qrant vəsaitindən qeyri-qanuni yolla nağdlaşdırılmış pullar alırlar, ya da çirkli pullar. Bunları qrant adlandırmaq mümkün deyil. Əgər qrant olsaydı, onlar layihələrində həmin qrantları verən təşkilatların loqolarını yerləşdirərdilər. Hazırda Avropada ölkəmiz əleyhinə söyüş kampaniyası aparan şəxslər var. İnternet kanalları açıblar. Görmüsünüzmü ki, orada hər hansı bir loqo yerləşdirsinlər və desinlər ki, bizim bu söyüş kampaniyamızı filan təşkilat maliyyələşdirir. Amma hər kəs bilir ki, onlar maliyyələşdirilir. Legitim yollarla əldə olunan qrantlarda istənilən donorun əsas tələblərindən biri də məlumatların yerləşdirilməsidir. Əslində bizim qrant adlandırdıqlarımızın çoxu heç qrant da deyil. Məsələn, Azərbaycan əleyhinə fəaliyyət göstərən şəxslərdən ibarət Avropa legionu adlandıraq. Onların maliyyə qaynaqları haradandır? Bu sırada Leyla Yunusun adını qeyd edə bilərik. Amerikada olduğu kimi, Avropanın başqa yerində də yarımgizli layihələri maliyyələşdirən qurumlar var. Leyla Yunus oradan da layihə alıb. Onun ən çox fəallıq göstərdiyi iki məsələ var, ermənilərin hüquqlarının müdafiə olunması ilə bağlı. Biri 1991-ci ildə Çaykəndindən köçürülən ermənilərin mülkiyyət hüquqları ilə bağlı. Biri də xəyanətə cəlb olunmuş mülkü və hərbçi azərbaycanlılarla bağlı müdafiəni həyata keçirir. Bunun qaynaqları hər kəsə bəllidir. Maliyyə vəsaitlərini ya ermənilər verirlər, ya da onlara yaxın qurumlar. 2013-cü ilə qədər bəzi pullar nağdlaşdırılıb, təzədən Avropaya daşınırdı. İndi bunların qarşısı alınıb. Amma Azərbaycana xeyli vəsait yönəlir. Təxmini hesablamalara görə, bu, 30-40 milyon dollar arasındadır. Bunların əhəmiyyətli hissəsi Azərbaycana gəlmir. Gürcüstan və digər yerlərdə keçirilən tədbirlərə sərf olunur. Bunların bir hissəsi ölkəmizə gizli daşınır. Buradakı fəaliyyətlərin maliyyələşdirilməsinə sərf olunur. Vəsaitlərin bir hissəsi də üçüncü ölkələrdə nağdlaşdırılır və yenidən Avropaya daşınır, bəlli qrupların maliyyələşdirilməsi üçün".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Gəncə hadisələri ilə bağlı cinayət işi məhkəməyə göndərildi

**Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğun mətbuat xidmətləri birgə rəsmi məlumat yayıb.**



Musavat.com-un xəbərinə görə, məlumatda bildirilib ki, 2018-ci il iyulun 10-da Gəncə şəhərində radikal dini yönümlü bir qrup şəxs tərəfindən ictimai asayişin pozulmasına yönələn zorakılıq aktları, hakimiyyət nümayəndələrinə silahlı müqavimət göstərilməsi, o cümlədən müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməsi, iki polis zabitinin qəsdən öldürülməsi ilə müşayiət olunan kütləvi iğtişaşlar törədilməsinə görə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində cinayət işi başlanılaraq istintaq aparılır.

Ötən müddətdə DİN, DTX və Baş Prokurorluğun təcrübəli əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu tərəfindən həyata keçirilmiş tədbirlərlə Maarif Hacıyevin və Xəyal Qafarovun, onlar ilə eyni cinayətkar niyyətləri və radikal dini baxışları bölüşən Şahlar Rzayev, Rəşad Böyükkişiyev, Kamal Quliyev və digər şəxslərlə cinayət əlaqəsinə girib sosial şəbəkələrdə, şəxsi görüş və söhbətlərdə zorakılıqlara və kütləvi iğtişaşlara çağırış xarakterli məlumatlar yaymaları, bu məqsədlə insanları iyulun 10-da saat 20.00 radələrində Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının qarşısındakı meydana toplamaq barədə çağırışlar yaymalarına əsaslı şübhələr müəyyən edilib.

İstintaq araşdırmaları ilə həmçinin adları çəkilən şəxslərin Gəncə şəhərində ictimai asayişi kobud şəkildə pozmaları, zorakılıqlar törətməsi, o cümlədən hakimiyyət nümayəndələrinə həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə silahlı müqavimət göstərməsi ilə müşayiət olunan kütləvi iğtişaşlar təşkil etmələrinə, həmin hadisələrdə fəal iştirakına, Xəyal Qafarovun, Samir İbrahimovun və Əli Rzayevin həm də qanunsuz olaraq əl qumbaraları, avtomat silahlara aid patronlar, külli miqdarda narkotik vasitə əldə edib saxlamalarına, gəzdirmələrinə və daşımalarına əsaslı şübhələr müəyyən edilib.

İş üzrə barələrində həbs-qətimkan tədbiri seçilmiş Cinayət Məcəlləsinin 220.1 (Kütləvi iğtişaş) və 315.2-ci (Hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) maddələri ilə təqsirləndirilən Maarif Hacıyev, Şahlar Rzayev, Ruslan Həsənov, Tural Bayramov, Nizami Əkbərov, Kamal Məhərrəmov, Seymur Əliyev, Toğrul Verdiyev, Orxan Yağnəliyev, Araz Həsənov və Vaqif Əşrəfov barəsində ayrıca icraata ayrılmış cinayət işinin istintaqı noyabrın 26-da, Cinayət Məcəlləsinin 220.1, 228.1 (Qanunsuz olaraq silah, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə), 234.4.3-cü (Bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən qanunsuz olaraq külli miqdarda narkotik vasitələrin əldə olunması) maddələri ilə təqsirləndirilən Xəyal Qafarov, 220.1 və 315.2-ci maddələri ilə təqsirləndirilən Kamal Quliyev, Raul Süleymanov, Ülvi Həsənov, Vüqar Allahverdiyev, 220.1, 228.1, 234.4.3 və 315.2-ci maddələri ilə təqsirləndirilən Samir İbrahimov, 220.1, 234.1 və 315.2-ci maddələri ilə təqsirləndirilən Əli Rzayev, 220.1-ci maddəsi ilə təqsirləndirilən Rauf Qurbanzadə, Mireşqin Seyidov, Kamal Məmmədtağıyev və Qadir Hüseynov barəsində ayrıca icraata ayrılmış cinayət işinin istintaqı isə noyabrın 30-da tamamlanaraq baxılması üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 259 (7148) 4 dekabr 2018



# Qara maskalılar

Zamin HACI
zaminhaci@gmail.com

"Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm"
*(Qarabağ folklorundan)*

**Vəziyyət o yerə çatıb ki, artıq camaat tibbi maskanın da qarasını taxmağa başlayıbdır. Başdan-ayağa qara geyindiyimiz bəs eləmirmiş. Qara kurtkalı qaqaşlara, qəbirdə ağlamaq üçün istehsal edilən qara paltarlı qadınlara qara maskalılar da əlavə olunur. Əsl qaragünlü millət olub gedirik. Məncə, burada Ekologiya Nazirliyinin şadlıq saraylarına qarşı apardığı tüstü bacası savaşının mühüm rolu olmuşdur. İmkan vermirlər camaat tüstülənsin, deyir qurğu qoy, tüstünü tut. Ta nə oldu? Bəs millət oğuz elində şadyanalıq olduğunu necə öyrənməlidir? Dövri-qədimdən bizdə toy-bayram olanda tonqal qalayıblar, ətrafdakılara məlumat veriblər, tonqal o dövrün bir növ vatsap qrupu kimi şey olubdur (hindular əslən türkdür, biləsiniz). Doğrusu, konkret toy olanda necə tonqal qalanmalıydı, onu unutmuşam. Ya üçdür, ya iki. Bəlkə də bir. Lap bəlkə də toy vurduranın bazburutuna baxırmış. İcra hakimi oğluna toy eləyəndə rayon mərkəzini tamamilə yandırmağa icazə varmış. Nazir toy eləyəndə rayonu. Uçaskovinin şadlığına hansısa budkanı (nazirdən kəskin dönərək geri qayıtmaq məsləhət oldu, yanmaq istəmirəm).**

Uzun sözün qısası, nazirlik toyxanaları hədələyəndən bəri şadlıq azalır, millət qaragün olur. Hərçənd bunun militarist gücümüzü artırmaq ehtimalını da rədd etmirəm. Almanların "SS" ordusunun rəsmi geyim forması başdan-ayağa qapqara rəngdə idi. İndi biz də bəlkə qara geyib "esesçi" olarıq, dünya bizdən danışar, qorxar?

İctimai, sosial durumdakı problemlər, görünür, hökuməti də ciddi narahat edir. Yox, mən baş nazir Novruz müəllimin sərəncamı ilə Nazirlər Kabineti aparatında pillləkənlərə baxan Həsən kişinin anbarın qıfılını dəyişən Hüsən müəllimlə əvəz edilməsinin iqtisadi islahatlarımızda yaradacağı möhtəşəm təbəddülatları nəzərdə tutmuram. Heç büdcədən bələdiyyələrə ayrılan dotasiyanın azalmasını, deputat Tahir müəllimin 2500 manatla 8 baş ailəni saxlamasının səs tembrində yaratdığı çətinlikləri, mənəvi dəyərlərimizə uyğun olaraq 9 yaşlı qızla evlənən müəllimin üzünün nurunun yardığı qaranlıqlarımızı da demirəm. Nazirlər Kabinetinin sərəncamı ilə gələn ildən ali məktəblərimizin abituriyentlərə təklif etdiyi ixtisaslar sırasına "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası artırılmışdır. Belə görünür ki, təkcə hüquq-mühafizə orqanlarının əməkdaşları ilə ictimai təhlükəsizliyi qorumaq çətinləşibdir, buraya daha yeni, əsas da ixtisaslı qüvvələr cəlb olunmalıdır. Yoxsa doğrudan da görürsən biri ağzının qatığını dağıdır, lakin onun gizli baldızı nəvəsini tapmaq, qulağını dartmaq üçün xeyli vaxt gedir. Adam var feysbuk-da min dənə şəkil paylaşıb, lakin biz hələ də bilmirik onun bacanağının əmisi oğlu kimdir. Bunu bilməyəndən sonra sabitliyi, ictimai təhlükəsizliyi necə qoruyasan? Hökumətin əlində tam informasiya bankı olmalıdır. İnformasiya bankı pul bankı qədər vacibdir. Hazır islahat paketləri, yenilik torbaları olmalıdır ki, adamı aşkar edən anda başına keçirdəsən, ictimaiyyətə zərər vurmağa imkanı olmasın.

Müasir dünyada bu, çox vacibdir. Odur, İbrahim müəllim demişkən, "götürək elə Parisi". Camaat şəhəri dağıdır, lakin ictimai təhlükəsizlik qüvvələri lazımi tədbir görmürlər. Nümayişçilərin nazıyla çox oynayırlar - Qəmlonun sözü olmasın (görün necə mütərəqqi sitat bazamız vardır. Allah qorusun). Hərçənd fransızlarda bu inqilabi fəaliyyətin tarixi kökləri vardır, onlar hər beş-on ildən bir qızışıb oranı-buranı dağıtmasalar yaşaya bilmirlər. Bizim sabitlik dediyimiz şeyə onlar inqilab deyirlər. Bizdə parkda gecə gəzmək asayiş örnəyi sayılır, onlarda bir neçə icra başçısını, uçaskovini, deputatı gilyotinə göndərmək. Bir də bizdə çox arvad almaq dəbdir, onlarda çox kişi almaq, ancaq bunu artıq bilirsiniz, niyə yazım ki.



# Ordumuza NATO silahları gəlir - Bakı müharibə strategiyasını gücləndirir

## Fransa Azərbaycana hava hücumundan müdafiə sistemləri verəcək - mühüm gəlişmə, işğalçıya şok xəbər; Bakı-Paris münasibətləri ılıqlaşır?..

**Fransanın "MBDA Systems" şirkəti Azərbaycana ASTER 30, SAMP/T və "VL Mica" hava hücumundan müdafiə (HHM) sistemləri tədarük edəcək. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə interfax.az saytı xəbər yayıb.**

"Biz bu sistemlərin Azərbaycana ixracından ötrü Fransa dövlətindən icazə almışıq. Azərbaycan tərəfi ilə ASTER 30 SAMP/T və "VL Mica" hava hücumundan müdafiə sistemlərinin alqı-satqısına dair danışıqlar yaxın zamanlarda yekunlaşacaq", - deyə şirkətin nümayəndəsi "AzeriDefence" jurnalına müsahibəsində bildirib. Onun sözlərinə görə, Azərbaycan tərəfi bu komplekslərin imkanları ilə tanış olub və məmnundur. "Bu sistemin Azərbaycanın hava hücumundan müdafiəsini ən mükəmməl şəkildə təmin edəcəyini düşünürük", - deyə o qeyd edib.

*****

"Yeni Müsavat" xatırladır ki, Azərbaycan indiyədək özünün hərbi-hava qüvvələrini gücləndirmək və daha da təkmilləşdirmək üçün Rusiya, İsrail, Türkiyə, Belarus və Pakistanla hərbi-texniki əməkdaşlıq çərçivəsində müxtəlif sistemlər və təyyarələr alıb, almaqda davam edir. Fransa bu yöndə Avropa Birliyi (AB) ölkələri arasında ilk dövlət ola bilər (Çexiya və İtaliya qismən istisna olmaqla). Aylar öncə Fransanın Azərbaycana müasir silahlar satmağa hazırlaşması haqda məlumatlar yayılmış, bu da işğalçı Ermənistanda təlaş yaratmışdı.

Sentyabrın 25-də Bakıda keçirilən üçüncü "ADEX-2018" Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində isə ilk dəfə olaraq, Fransa "Naval Group" və "Thales" şirkətləri timsalında təmsil olunmuşdu. "Naval Group" hərbi-dəniz müdafiəsi sahəsində Avropa lideri sayılır. Şirkət əsasən sualtı qayıqları və gəmiləri layihələndirir və inşa edir. "Thales" isə sərgidə hava hərəkətinin idarə olunması, hava müşahidə sistemləri, zirehli maşınlar, təlim və simulyasiya üzrə məhsul və xidmətlərini təqdim etmişdi.

Sərgi çərçivəsində o da məlum olmuşdu ki, Azərbaycanla Fransa hərbi-texniki sahədə əməkdaşlığı genişləndirməyə hazırlaşır. "Azərbaycan Fransa ilə müştərək əsasda hərbi patrul gəmiləri istehsal etməyi nəzərdə tutur". Bunu "Naval Group" şirkətinin Azərbaycandakı nümayəndəsi Kristof Blö bildirmişdi. O, məsələ ilə bağlı hərtərəfli danışıqlar aparıldığını da demişdi.

Məlumatlara görə, "OPV-90 tipli hərbi gözətçi gəmilərinin Azərbaycanda istehsal olunması nəzərdə tutulur. Söhbət ayrı-ayrı hissələri gətirib yığmaqdan yox, məhz bütöv bir istehsal prosesindən gedir. "Həmin gəmi Azərbaycanın Xəzərdə suveren hüquqlarını təmin etməyə layiqli töhfə verəcək" - deyə, Fransa şirkətinin təmsilçisi qeyd etmişdi. OPV-90 gəmiləri həmçinin gəmi vuran raketlər sistemi ilə təchiz olunub və iki 5-10 tonluq helikopteri qəbul edə bilir.

******

Virtualaz.org açıq hərbi qaynaqlara istinadən xəbər verib ki, Azərbaycanın Fransadan almağa hazırlaşdığı SAMP-T zenit-raket kompleksi qoşunların və yürüşdə olan mexanikləşdirilmiş birləşmələrin, habelə böyük əhəmiyyətə malik stasionar obyektlərin geniş spektrdə hava hədəflərinin kütləvi aviasiya hücumunun qarşısını almaq üçündür. Bura taktiki qanadlı raketlərdən tutmuş, bütün tiplərdə təyyarə və vertolyotlar, habelə müxtəlif pilotsuz uçan aparatlar (PUA) daxildir. SAMP-T onları sutkanın istənilən vaxtında, istənilən hava şəraitində aşkar edib vura bilir. Özü də düşmən tərəfinin müxtəlif tipli siqnalpozucu vasitələrdən istifadə etdiyi şəraitdə.

"Aster-30" idarəolunan zenit raketi isə ikipilləli, bərk yanacaqla işləyən yüksək dəqiqlikli raketdir. Trayektoriyanın başlanğıc və orta mərhələsində komandanı yerdən alır, trayektoriyanın sonuna doğru isə aktiv fa za barmaqlığlı radar işə düşür və raket inersiyal olaraq hədəfə yönəlir.

VL "MİCA "zenit-raket komplekslərinə gəlincə, bunlar yaxın mənzilli sistemlərdir və quru qoşunlarının bölmələrinin, aviabazaların, komanda məntəqələrinin və gəmilərin qanadlı raketlərin, idarəolunan aviabombaların, təyyarələrin, vertolyotların və PUA-ların hücumundan qorunması üçün nəzərdə tutulub. Kompleks sutkanın istənilən vaxtında və istənilən hava şəraitində işləyir, MİCA "hava-hava" raketlərinin bazasında MBDA firması tərəfindən işlənib hazırlanıb...

*****

Fransa ilə sıx münasibətlər sözsüz ki, Azərbaycan üçün hər şeydən öncə Qarabağ məsələsində Parisin ATƏT-in Minsk Qrupunun 3 həmsədrindən biri olmasına görə önəm kəsb edir. Fransa eyni zamanda erməni lobbisinin ən güclü olduğu, saxta "erməni soyqırımı" məsələsində qatı ermənipərəst mövqe sərgiləyən Qərb ölkəsidir. Bu mənada Fransa ilə hərbi sahədə əlaqələrimiz prinsipial əhəmiyyət daşıyır. Başqa yandan, Azərbaycan digər həmsədr dövlətdən - Ermənistanın əsas müttəfiqi olan Rusiyadan böyük həcmdə silah-sursat alırsa, Fransa və onun hərbi-sənaye kompleksi ilə də əməkdaşlıq qurula bilər.

Hərbi əlaqələr, ortaq iqtisadi maraqlar isə təbii ki, ortaq siyasi maraqları zəruri edir, qarşılıqlı etimada işləyir. Bu xüsusda son vaxtlar Qarabağdakı separatçı-kriminal rejimin başçısı Bako Saakyanın Fransa səfərindən dolayı Bakı-Paris münasibətlərində yaşanan gərginliyin ardınca HHM-lərlə bağlı xəbər Fransadan Azərbaycana yaxşı bir jest sayıla bilər...

*****

Maraqlıdır ki, Fransanın Azərbaycan HHM sistemləri satacağı ilə bağlı xəbər Ermənistanın guya Rusiyadan 100 milyon dollar kredit çərçivəsində Su-30SM qırıcıları almağa hazırlaşması barədə müdafiə naziri əvəzi David Tonoyanın açıqlamasından iki gün sonraya təsadüf edir. Toniyanın dediyinə görə, Moskva ilə anlaşma yekunlaşmaq üzrədir. **Azərbaycanlı hərbi ekspert Şair Ramaldanov** isə qəzetimizə müsahibəsində erməni rəsmisinin söylədiyinə şübhə ilə yanaşaraq, bunu daha çox 9 dekabr parlament seçkiləri ilə bağlı daxili auditoriyaya ünvanlı bəyanat saydığını demişdi. Çünki onun sözlərinə görə, belə bir anlaşmanın olmasına dair ortada yetərli dəlil-sübut, sənəd yoxdur.

**Sitat:** "Bu gün öz əsgərini yetərincə alt paltarları ilə belə, təmin edə bilməyən bir dövlətin bu təyyarələri almağa imkanı ola bilərmi? Bu, çox ciddi sualdır. Siyasi proseslər qabağı Ermənistanın müdafiə naziri səlahiyyətlərini icra edən şəxs, sadəcə, belə açıqlamalarla çıxış edir. Belə bəyanatları biz onlardan çox eşitmişik. Halva-halva deməklə ağız şirin olmur. Deyirlər ki, təyyarələrin alınması ilə bağlı son mərhələdəyik. Amma açıqlanmır. Əgər məhsul varsa, pul verilir və o alınır. Kredit varsa, bu barədə də məlumat verilir. Bütün bunları nəzərə alsaq, çox da inandırıcı gəlmir. Tutaq ki, onlar həmin silahları aldılar, unutmayaq ki, o silahlar Azərbaycanın hava məkanında üstünlük qazanacaq səviyyədə deyil. Bu gün bizim hərbi hava qüvvələrimiz ermənilərdən 6-7 dəfə üstündür. Yəni imkanlarımız çoxdur".

*****

Azərbaycan isə üstəlik, bir ölkədən - Rusiyadan silah asılılığına düşməmək üçün özünün hərbi strategiyasını cilalamaqda, silah tədarükü siyasətini şaxələndirməyə davam edir. Ermənistandan fərqli olaraq, buna bizim maliyyə-iqtisadi potensialımız tam imkan verir. Hərbi ekspertlərə görə, havada üstün olmayan ölkənin isə müharibədə qalib gəlməsi qeyri-mümkündür. Onların qənaətincə, Azərbaycan isə postsovet məkanında Rusiyadan sonra hava hücumundan ən güclü müdafiə sistemi yaratmış ölkədir.

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 259 (7148) 4 dekabr 2018

**Hazırda MDB məkanında çox ciddi proseslər gedir. Rusiya-Ukrayna arasında qarşıdurma yaşanır. Eləcə də Gürcüstan, Ermənistan kimi ölkələrin daxilində ciddi siyasi proseslər cərəyan edir. Bu məkanda gedən proseslərin digər ölkələrə sıçrama ehtimallarının olub-olmadığı yönündə müxtəlif fikirlər səslənir.**

# Rusiyaya MDB xofu-Qərb bu regionu Kremldən ala bilər

## Nəzakət Məmmədova: "MDB ölkələrinin Rusiyadan tam qopma prosesi baş verəcək"



**Politoloq Nəzakət Məmmədova** bildirdi ki, MDB ölkələri SSRİ-nin süqut etməsindən sonra müxtəlif yollarla irəliləməyə başladılar: "Bu ölkələrin hamısının müstəqillik qazandıqları cəmi 27 il olsa da, bu dövrdə onların keçdikləri yol və hazırkı mövqeləri tamam fərqlənir. Məsələn, onların bir qismi Baltikyanı ölkələr kimi hətta NATO və Avropa Birliyinin üzvüdürlər. Digərləri də Belarus, Qazaxıstan, Qırğızıstan və s. Rusiyanın yaratdığı hərbi-siyasi, iqtisadi-ticarət təşkilatlarının üzvüdür. Bir başqaları isə əksinə, Ukrayna və Rusiya kimi Rusiya ilə münaqişə vəziyyətindədirlər. Azərbaycan, Gürcüstan, Ukrayna, Moldova ərazilərində Rusiya separatçılığa dəstək verib, qeyri-qanuni rejimlər yaradıb və öz agentlərini o rejimlərin başına qoyaraq onları idarə edir, bizim kimi ölkələrə təzyiq vasitəsi kimi istifadə edir. Lakin bu gün dünyada vəziyyət dəyişib və Rusiyanın xeyrinə olmayan istiqamətdə cərəyan edir. Rusiya son dirənişlərini göstərir, Krımı ilhaq edir, yeni silah növləri ixtira edib dünyaya göstərməklə qarşısında dayanan hər kəsi təhdid edir, Əsəd rejiminə dəstək verir, Türkiyəni NATO-dan qoparmağa çalışır, Avropanın NATO-ya alternativ ordu yaratmasını dəstəkləyir, ABŞ və Avropada seçkilərə müdaxilə etməkdə ittiham olunur, adı casus qalmaqallarında hallanır və s. Qarşılığında sanksiyalar tətbiq olunur, onsuz da istehsala yox, daha çox xammal ixracatına əsaslanan, əsasən neft və qaz satışından gəlirləri formalaşan ölkə iqtisadiyyatı zəifləyir, əhalinin sosial durumu pisləşir. Bəzi MDB ölkələri Qərb nümunəsində inkişaf etmək, demokratiya və azadlıqlara can atmaq yolunu tutublar. Lakin onların heç birisi hələ ki müşkül olan maneələri aşa bilməyib. Burada tam Rusiyanı ittiham etmək olmaz. Korrupsiya, oliqarxkratiya, qanunun aliliyinə hörmət etməmək, cəmiyyət üzərində həddindən artıq total nəzarət və təzyiqlər bu ölkələrin demokratik yolunda inkişafına mane olur. Bütün MDB ölkələri "Rusiyanın şinel"ndən çıxsalar da, onlardan bəziləri hələ də tam çıxa bilməyib, orada ilişib qalıblar. Rusiya da bəzi MDB ölkələrində hakimiyyətə gətirdiyi siyasi qüvvələr vasitəsilə onların inkişafına mane olmaq, korrupsiya, demokratik azadlıqları boğmaq vasitəsilə cəmiyyətin inkişafına mane olmaq əvəzinə, onların elementar insan hüquq və azadlıqlarına hörmət etməsinə şərait yaratsa, bu ölkələr nəinki MDB-dən qaçar, əksinə, Rusiyaya qorxu mənbəyi kimi yox, rəğbətlə yanaşar. Qərb, xüsusilə ABŞ artıq MDB-nin bilavasitə ərazisində Rusiya ilə geosiyasi savaşa girib. Ermənistan, Ukrayna, Gürcüstan buna misaldır. SSRİ dövründə Qərb və Rusiya arasında "bufer zonası", yaxud "sanitar kardon" kimi mövcud olan Şərqi Avropadan sonra Qərb geosiyasi nüfuz savaşını Rusiyanın bilavasitə nüfuz dairəsi hesab etdiyi ərazilərdə, MDB-də aparır. Rusiyanın əsas "xilasedici jileti" onun ərazisinin həddindən artıq böyük olmasıdır. NATO-nun əsas strategiyalarından olan "həlqə" strategiyasını fiziki baxımdan bura tətbiq edib Rusiyanı mühasirəyə almaq müşküldür. Lakin obrazlı desək, "nəhəng ayıya hər tərəfdən hücum edən köpək sürüsü" gec ya tez onu yaralaya, yaxud məhv edə bilər. Düşünürəm ki, gec və ya tez MDB ölkələrinin Rusiyadan tam qopma prosesi baş verəcək. Proses artıq başlayıb və Ukrayna, Ermənistan, hətta son seçki nəticələrinə rəğmən Gürcüstan nümunəsində geniş vüsət alıb. Bir zamanlar Şərqi Avropa və Balkanların rusların nüfuz dairəsindən çıxmasını təsəvvür belə etmək olmazdı, bu gün isə bu, reallıqdır. Bir dövr sonra Rusiya artıq MDB-nin deyil, öz bilavasitə sərhədlərinin qorunması qayğısına qalmalı olacaqdır və buradan əl çəkmək məcburiyyətində qalacaqdır. Hazırda Armageddon savaşı gedir və bu savaş MDB ölkələrinin öz buxovlarını qırması ilə nəticələnəcəkdir. Təbii ki, Qərb ölkələri də MDB-ni öz "nüfuz dairəsi", "məsuliyyət zonası", "maraq dairəsi" elan etməklə burada öz maraqlarını həyata keçirməyə çalışırlar. Onların dediyi insan hüquqları, demokratiya da öz ideologiyalarını yaymaq üçün bir örtük vasitəsidir. Lakin önəmli olan bu maraqların MDB ölkələrinin maraqları ilə uyğunluq təşkil etməsi, onların da Qərbə inteqrasiyadan divident əldə etməsidir. Rusiyadan uzaqlaşan MDB dövlətlərinə Qərb daha yaxşı şərait, demokratiya, insan haqları sahəsində yardım vəd etməklə yanaşı, investisiyalar, iqtisadi yardımlar təklif etməli, əhalinin sosial durumunun yaxşılaşması üçün proqramlar təklif etməlidir. Əks halda, insanların, bu ölkələrin əhalisinin Rusiyadan uzaqlaşması və Qərbə yaxınlaşması üçün həvəsləndirici motivləri olmayacaqdır. Ermənistan hadisələri sübut etdi ki, insanlar məhz köhnə rejimdən, onun yaratdığı acınacaqlı durumdan xilas olmaq, daha yaxşı həyat ümidi ilə Paşinyana dəstək verirlər. Qərbin dəstək verdiyi Paşinyan bu gözləntiləri doğrultmasa, o zaman insanlar inamsızlığa qapılacaqlar. Ukraynada artıq bu ümidsizlik yaranıb. Maydan hadisələrindən keçən 5 ildə ölkə heç bir uğur qazanmayıb, əksinə, korrupsioner dövlət aparatı yaratmış oliqarxların hakimiyyəti əhalini yoxsulluq, ölkəni xaosa yuvarlayıb. MDB ölkələrinin "rəngli inqilab", faktiki dövlət çevrilişindən sonra üzləşdiyi ən böyük problem budur: insanlar demokratiya, Qərb standartlarına uyğunlaşmaq ümidi ilə küçələrə axışır, lakin proseslərdən istifadə edərək bir qrup hakimiyyətə gəlir və əvvəlkindən daha artıq insanları əzir, korrupsiya daha da çiçəklənir, demokratiya boğulur".

**Politoloq Qərbin MDB məkanına necə təsir edə biləcəyinin yollarını da göstərdi:** "Xaricdən Rusiyanın təzyiqi, separatçılıq, xaos, daxildə isə " rəngli inqilab" fonunda hakimiyyətə gələn qrupların qeyri-qanuni fəaliyyəti, korrupsiya, yoxsulluq, işsizlik və s. insanların Qərbin köməyi ilə baş tutan inqilablara inamını azaldır. Bu, digər MDB ölkələri üçün də nümunə olur və insanlar sabitliyi daha üstün tuturlar, nəinki demokratiya, insan hüquqları, Avropaya inteqrasiya şüarları ilə hakimiyyətə gələn siyasi qüvvələrin onlara vəd etdiyi mücərrəd gələcəyi. Artıq bir neçə MDB ölkəsində Saakaşvili dövründəki Gürcüstan istisna olunmaqla, bu cür pis nümunələr olduğu üçün insanlarda "rəngli inqilab"larla nələrisə yaxşılığa doğru dəyişmək ümidləri azalıb. Nəinki MDB-də, tarix boyu bütün dünyada siyasi proseslərin axarını dəyişdirə biləcək ən böyük qüvvə xalqdır. Əgər xalq, əhali digər keçmiş sovet respublikalarında Rusiyadan qopub Qərbə üz tutan, hətta bunu təkamül deyil, inqilab yolu ilə etmək istəyən qonşu dövlətlərdə xaos, özbaşınalıq, korrupsiya, insanların güzəranının pisləşməsini müşahidə edirlərsə, təbii ki, onlarda artıq qeyd etdiyimiz kimi, nələrisə yaxşılığa doğru dəyişməyə inam azalır və onlar Qərbin maliyyə və siyasi dəstək verdiyi müxalifətə inanıb, onların arxasınca getmir, hakimiyyətə qarşı çıxmırlar. Qərbin ən əsas vəzifəsi bu olmalıdır ki, əgər onlar MDB ölkələrini Rusiyanın orbitindən çıxarıb öz məsuliyyət zonası elan edirlərsə, bu ölkələrin əhalisini öz geosiyasi maraqlarına qurban verməməlidir".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# ABŞ-la Çin arasında tarixi razılıq

## Fikrət Yusifov: "Gərginliyin uzun çəkməyəcəyi gözlənilən idi"

**Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən G20 sammitində Amerika ilə Çin arasındakı ticarət qalmaqalının aradan qaldırılması ilə bağlı ilkin razılıq əldə olundu. Çin ABŞ-la ticarət kəsirini azaltmaq üçün sonuncudan "olduqca böyük həcmdə" məhsul almağa razılıq verib.**



Bu barədə Ağ Evin mətbuat katibi Sara Sanders prezident Donald Tramp və Çin rəhbəri Si Tzinpin arasında 2,5 saatlıq görüşdən sonra keçirilən mətbuat konfransında bəyan edib.

Razılığa əsasən Çin ABŞ-dan kənd təsərrüfatı, energetika, ağır sənaye və digər sahələrə aid olan böyük miqdarda məhsul alacaq. Bu anlaşma kənd təsərrüfatı məhsullarına dərhal tətbiq ediləcək.

Bunun əvəzində isə Tramp 2019-cu il yanvarın 1-dən qüvvəyə minəcək, Çin mallarına aid edilən rüsumların 10%-dən 25%-ə qədər çıxarılması barədə fərmanının icrasını təxirə salacaq. Sandersin sözlərinə görə, əvvəlki rüsumlar rəsmi Vaşinqton və Pekin arasında tam razılıq əldə olunana qədər 90 gün ərzində qüvvədə qalacaq.

Xatırladaq ki, 2018-ci ildən bu yana ABŞ və Çin arasında "ticarət müharibəsi" gedir. ABŞ Çindən alınan 250 milyard dollarlıq həcmdə bütün əmtəə nişanlarına əlavə gömrük rüsumları tətbiq edib. Buna isə Çin ABŞ-dan gətirilən 110 milyard dollarlıq həcmdəki əmtəələrə eyni rüsumlarla cavab verib.

Tramp hakimiyyətə gəldiyindən bu yana iki ölkə arasındakı ticarət kəsirinin (Çinin xeyrinə 181 milyard dollar) həddindən artıq böyük olmasından şikayətlənib.

Əldə olunan bu anlaşmadan hansı tərəfin uduşlu çıxdığı barədə müxtəlif fikirlər səslənir. Çoxları bu razılığın hər iki tərəf üçün sərfəli olduğunu düşünür. ABŞ-Çin razılaşmasının dünya iqtisadiyyatına müsbət nəticələr verəcəyi də qeyd olunur.

**Sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov "Yeni Müsavat"a bildirdi ki, kompromisə gəlmək hər iki dövlət üçün sərfəli oldu:** "Əslində belə bir razılığın əldə olunacağı gözlənilirdi. Ticarət qalmaqalının belə davam etməsi mümkün deyildi. İki ölkə birlikdə dünya iqtisadiyyatının az qala 40%-ni verir. Proseslərin bu şəkildə davamı təkcə Amerika və Çin iqtisadiyyatına deyil, bütövlükdə dünya iqtisadiyyatına zərbə olardı. Məsələn, Beynəlxalq Valyuta Fondunun iki ölkə arasındakı ticarət müharibəsi ilə bağlı apardığı təhlillər onu göstərdi ki, bu müharibə belə davam edərsə, bir il ərzində dünya iqtisadiyyatı bütövlükdə 0,7% itkiyə məruz qala bilər. Bu da çox ciddi bir rəqəmdir. Təsəvvür edin ki, iki ölkə arasındakı qalmaqala görə dünya iqtisadiyyatı 0,7% itkiyə məruz qalsın. Bütün bunlara görə ölkələrarası bu gərginliyin uzun çəkməyəcəyi gözlənilən idi. Hər iki ölkənin rəhbərləri bu məsələnin ciddiliyini dəyərləndirirlər, həm öz dövlətləri, həm də dünya iqtisadiyyatı üçün. Onu da yaxşı bilirdilər ki, məsələnin bu cür davamı heç birinə sərf etmir. Bu baxımdan hesab etmirəm ki, hansısa tərəf uddu. Bütövlükdə dünya iqtisadiyyatı uddu. İki dövlət də uduşlu çıxdı. Münaqişə heç bir tərəfə yaxşı heç nə vəd etmir. Çin Amerikaya bir il ərzində 500 milyarddan yuxarı məhsul ixrac edir. Bu böyük bir həcmdir. Həcmin azalması Çin iqtisadiyyatına ciddi zərbə vurardı. Bu baxımdan Çin müəyyən kompromislərə getdi. Açığı, düşünmürəm ki, bunlar Amerika və Çin rəhbərlərinin son görüşündə ortaya çıxmış məsələ olsun. Əvvəlcədən hər iki tərəfin aidiyyəti strukturları bunu işləyib hazırlamışdılar. Yəni anlaşmanın bir neçə variantı hazır idi. Bu variantlar görüş zamanı ortaya qoyuldu və onun ətrafında razılıqlar əldə olundu. Bəziləri belə dəyərləndirir ki, Çin tərəfi uduzma mövqeyindədir və bunun üçün Amerikadan lazım olan kənd təsərrüfatı məhsullarının alınmasına razılıq verdi. Açığı, mən belə düşünmürəm. Bir gedişdə deyilən uduzmaq varsa, digər gedişdə udmaq var. Çünki rüsumlardakı güzəştlər o deməkdir ki, Çin əvvəlki qaydada ABŞ bazarlarında olacaq. Bu da Pekin üçün çox önəmlidir. Əldə olunan razılıqlar qarşılıqlıdır. Hər iki tərəfin maraqlarını reallaşdıracaq güzəştlərdir. Bu həm də iqtisadi, ticarət münasibətlərində balansı qorumağa xidmət edən güzəştlərdir".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 259 (7148) 4 dekabr 2018

# "Cəhənnəm"in qapısını açan adam - Corc Buş...

## ABŞ-ın 41-ci prezidentinin hərbi təyyarəçilikdən başlayıb prezidentlikdə bitən karyerası

**ABŞ-ın eks-prezidenti Corc Herbert Buş (ata) ötən həftə cümə günü vəfat etdi. 94 yaşlı ata Buş 1989-93-cü illər arasında ABŞ-a rəhbərlik edib. Hansı ki, dünya tarixinin ən həssas bir dövrünə təsadüf edir. Əfqan müharibəsinin başa çatması, SSRİ-nin dağılması, Körfəz müharibəsi və sair ata Buşun prezidentliyi dövrünə təsadüf edir. Bu, həm də ABŞ-ın "Soyuq müharibənin" başa çatması ilə şəriksiz dünya lideri olması idi.**

Ancaq indi dünyada ata və oğul Buş daha çox Körfəz müharibəsi və İraqın işğalı ilə xatırlanır. Ata Buş İraqa qarşı müdaxilənin əsasını qoydu, oğul isə İraqı işğal etdi. İraqın işğalı Orta Şərqdə başlayan xaos və anarxiya, terror müharibələri dönəminin başlanğıcı oldu. Hansı ki, hələ də bitmək bilmir.

Almaniya və Britaniya əsilli Buşun ulu babaları ABŞ-da vəkil, yazar kimi məşhurlaşıb. Ailə qatı xristian - yevangelist təriqətinə mənsubdur. Hətta oğul Buşun prezident seçilməsində Yevangelist kilsənin rolu, İraq müharibəsində Yevangelist inancın təsiri ilə bağlı zamanında çoxlu saylı nəzəriyyələr ortaya atılıb. Ancaq hətta bu iddialar sübuta yetməsə belə, ata və oğul Buşun Yaxın Şərqdəki siyasəti regiona hələ də davam edən amansız xaos və terror gətirdi.

Corc Buşun (ata) siyasi karyerası xeyli zəngin və maraqlı olub. 1924-cü il iyunun 12-də dünyaya gələn Corc Buş İkinci Dünya müharibəsində iştirak edib. Perl Harbor əməliyyatından (1941-ci ilin dekabrı - K.R.) sonra orduya qatılıb, pilot təlimi alaraq 18 yaşında ABŞ tarixində ən gənc hərbi pilotlardan biri olub. Sakit okeanda xidmət edib. Təyyarəsi bir dəfə yaponlar tərəfindən vurulub, ancaq Buşun bəxti gətirib dənizə düşən təyyarəsinin lap yaxınlığında gözlənilmədən bir Amerika sualtı qayığı dənizin üzərinə çıxıb və Buşu xilas edib.

1945-ci ildə müharibədən dərhal sonra Barbara ilə evlənib və 6 övladı dünyaya gəlib. Böyük oğlu Corc Buş (oğul) 1946-cı ildə dünyaya gəlib. Müharibədən sonra bir müddət neft sənayesində çalışan Buş öz şirkətini qurub və böyük qazanc əldə edib. Bununla da əslində Donald Trampdan öncə siyasətə biznesdən gələn şəxslər Buş ailəsi olub.

Lakin ata Buşun zəngin siyasi karyerası olub. 1966-cı ildə Corc Buş ABŞ Konqresinin nümayəndələr palatasına seçilib. 1971-ci ildə isə prezident Nikson tərəfindən ABŞ-ın BMT-dəki təmsilçisi postuna təyin olunub. 1974-cü ildə isə ABŞ-ın Çinin paytaxtı Pekində qurulan yeni missiyasına rəhbər təyin olunub. 1976-cı ildə prezident Cerald Ford Corc Buşu Mərkəzi Kəşfiyyat İdarəsinə (CİA) direktor təyin edib.

Ata Buş yeni mühafizəkar qrupa yaxın olub və onun rəhbərliyi dövründə SSRİ-yə qarşı ABŞ-da ciddi hərbi-siyasi səfərbərlik olur. 1981-89-cu illərdə ABŞ prezidenti işləmiş Ronald Reyqan Corc Buşu özünə vitse-prezident təyin edir. Buş bu postda 8 il, yəni Reyqanın səlahiyyəti bitənə qədər çalışır. Bu o dövr idi ki, SSRİ Əfqanıstanda məhz ABŞ və onun müttəfiqlərinə məğlub olurdu. 1988-ci ildə keçirilən prezident seçkilərində vitse-prezident Corc Buş (ata) qalib gəlir. 1836-cı ildən sonra ilk dəfə vitse-prezident prezident seçilir. Ancaq ata Buş vergi islahatları ilə bağlı seçki vədlərini reallaşdıra bilmir və bu səbəbdən də reytinqi düşüb. Nəticədə prezident postunda yalnız bir dönəm - 4 il qalan Corc Buş 1992-ci ildə keçirilən seçkilərdə Demokrat Partiyasının namizədi Bill Klintona məğlub olub.



Ancaq 4 illik (1989-cu ilin yanvarından 1993-cü ilin yanvarına qədər - K.R.) prezidentlik dövründə Corc Buş dünya tarixində səs-küylü hadisələrə imza atıb. Reyqan dönəmində vitse-prezident, ondan əvvəl isə 5 il kəşfiyyatın rəisi olmuş Buşun SSRİ-nin süqutunda ciddi əməyi olub. Lakin eyni zamanda sovet dövlətinin rəsmi olaraq dağılması da prezident Buşun hakimiyyət illərinə təsadüf edir. 1989-cu ildə sovet qoşunları 8 illik amansız müharibədən sonra Əfqanıstanı tərk edir, iki il sonra isə böyük imperiya tarixdən silinir.

Buna qədər isə 1989-cu ilin dekabrında ata Buş ilk hərbi icraatını həyata keçirir. ABŞ ordusunun 20 minlik hərbi birləşməsi hakimiyyətə gəldikdən sonra Vaşinqtonun "üzünə ağ olan" Panama diktatoru polkovnik Manuel Orteqanı cəzalandırmaq üçün Panamaya müdaxilə etdi.

Bir neçə aydan sonra isə İraq diktatoru, uzun illər ABŞ-ın müttəfiqi olmuş Səddam Hüseyn gözlənilmədən Küveytə hücum edərək ölkəni işğal etdi. Küveyt ABŞ-ın ən yaxın müttəfiqlərindən biri, neft təchizatçıları sırasında idi. Səddamın bu ölkəni işğal etməsi dünyada ciddi etiraz doğurdu. 1991-ci ilin 17 yanvarında 32 dövlətdən ibarət hərbi koalisiya İraqa müharibə elan etdi. "Səhrada fırtına" əməliyyatı bir ay davam etdi. İraq ordusu ABŞ koalisiyası qarşısında davam gətirə bilmədi. Bunun əvəzində İraq faktiki olaraq İraqın mühasirəyə alınması, şimalda uçuşa yasaq bölgənin qurulması ilə Səddamın əl-qolunun bağlanması idi. Məhz bu dövrdən sonra İraq kürdləri bölgədə müstəqil hərbi-siyasi gücə çevrildi. İraqın işğalını isə oğul Buş tamamladı. Bunun üçünsə arada 8 illik Bill Klinton dönəmi olacaqdı. 2000-ci ildə keçirilən seçkilərdə qalib gələn oğul Buş 2001-ci ilin sentyabrında, səlahiyyətlərinin icrasına başlamasından 8 ay sonra 11 sentyabr terroru baş verdi və dünya 8 illik antiterror müharibəsi erasına daxil oldu. 2003-cü ildə oğul Buş atasının "yarımçıq" qoyduğu işi tamamladı, İraq işğal olundu. Ancaq müharibə nəinki bitmədi, əksinə, yeni, ağır bir savaş başladı. Hansı ki, onun nəticələri hələ də davam edir. İraqın işğalı və sonrası baş verənlər müsəlman aləmində nifrət və terror çağırışlarını daha da yüksəltdi. Bölücülük daha da dərinləşdi. Ümumiyyətlə isə ABŞ ordusu 1991-ci ildə daxil olduğu Yaxın Şərqdən hələ də çıxa bilməyib.

**❑ Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Ermənistandan aldıqları saxta sənədlə İsraili aldadan 40 həkim tutuldu

## İsrail polisi irimiqyaslı əməliyyat keçirdi və tibb sektorunda dələduzluq edən erməniləri yaxaladı

**Dekabrın 3-də səhər saatlarında İsrail polisi ölkənin Səhiyyə Nazirliyindən Ermənistanda verilmiş saxta diplomlar əsasında lisenziya almaqda şübhəli bilinən 40 həkim və əczaçını saxlayıb.**

Həmin insanlar Ermənistan universitetinin tibb və əczaçılıq fakültələrində təhsil alıblar: "Onlar Səhiyyə Nazirliyinə mütəxəssis diplomlarını təqdim ediblər, halbuki əslində orada qısa müddət ərzində təhsil alıblar və imtahanları tam verməyiblər".

"Yeni Müsavat" xarici mətbuata istinadən bildirir ki, istintaqın nəticələrinə görə, şübhəli İsrail Səhiyyə Nazirliyinə saxta diplomlar təqdim edib və bununla tibb müəssisələrində işləmək üçün icazə alıb. Məlumatlarda qeyd edilir ki, bütün məhbuslar İsrail vətəndaşı, ərəb sektorunun nümayəndələridir.

Fırıldaqçıları müəyyən etmək üçün əməliyyat "Öldürmək üçün lisenziya" adlandırılıb. Polis hesab edir ki, şübhəlilər İsrail Səhiyyə Nazirliyini qəsdən yanıltmaqla, saxtakarlıqla əldə etmiş olduqları diplomlardan istifadə ediblər.

Bəzi saxta diplom sahibləri İsraildə işləmək üçün lisenziya əldə edib, xarici universitetlərin məzunları üçün keçirilən imtahanlara da qatılıb, həkim işləməyə müvəffəq olublar. Məlumatlara görə, istintaq prosesində şübhəlilərin xaricdə müxtəlif tibb universitetlərində təhsil aldıqları da müəyyən edilib. Diplom ala bilməyənlər isə saxta yolla özlərinə "diplom" hazırladıblar.

Fırıldaqçılar "Barzilai", "Kaplan", "Assaf ha-rof " kimi böyük xəstəxanalara daxil olan müxtəlif tibb müəssisələrində çalışıblar. Onlar orada həkim və ya təcrübəçi kimi fəaliyyət göstəriblər.

Polis istintaqı İsrail Səhiyyə Nazirliyindən aldığı şikayət əsasında başladıb. Şikayətin isə kim tərəfindən edildiyi bilinmir və bu, anonim olaraq qalır.

Bütün lazımi sübutlar toplandıqdan sonra, 2 dekabr tarixində polis İsrailin müxtəlif şəhərlərində - cənubdan şimala olan bütün şübhəlilərin tutulması üçün genişmiqyaslı bir əməliyyat başladıb.

Şübhəlilərdən biri, Arara kəndinin 30 yaşındakı bir sakini Aşkelondakı "Barzilai" xəstəxanasında çalışan həkimdir. O, elə vəzifə başında olduğu zaman saxlanılıb. Digər bir ailə həkimi olan şəxsin tutulması zamanı isə onun atası iki ədəd "Kalaşnikov" silahı ilə gizlənməyə çalışıb.

Saxlanılanlardan biri diş həkimidir və o, hətta özünün klinikasını belə yarada bilib. Məlumatlara görə, həmin şəxs daha öncə də təhlükəsizlik məsələləri ilə bağlı etdiyi cinayət əməlinə görə həbs cəzası alıb. Səhiyyə Nazirliyi istintaqda polisə kömək olmağı vəd edib. Eyni zamanda digər fırıldaqçıları müəyyən etmək üçün yoxlamalar aparılır...

Ermənistan isə məsələyə fərqli don geyindirir. Məlumatlarda bildirilir ki, guya ermənilər İsraildə iş tapa bilmirlər. Halbuki məlumatlardan da görünür ki, onlar saxta diplomlar vasitəsilə dünyaca məşhur İsrail xəstəxanalarına soxulmağa çalışıblar. İsrail xəstəxanalarında erməni həkimləri işlə təmin etməyiblər. Bunun səbəbi kimi isə yayılan məlumatlarda göstərilir ki, Ermənistanda tədrisin keyfiyyəti olduqca aşağıdır.

**❑ Hazırladı: Əli Rəis, "Yeni Müsavat"**


ДИПЛОМ
АВ № 203988
REPUBLIC OF ARMENIA
Yerevan Haybusak University
DIPLOMA
AB № 203988


רשיון לעסוק ברפואה
10/10/2018

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Ermənistanda növbədənkənar seçkilərə sayılı günlər qalır. Ölkə daxilində gərgin siyasi atmosferin hökm sürməsi ilə yanaşı, İrəvanla Xankəndindəki separatçı rejim arasında da söz savaşı qızışmaqdadır.**






# İrəvanla Xankəndi arasında görünməmiş gərginlik - qarşıdurma nə vəd edir?

## Paşinyanın Saakyanı əvəzləmək planı uçurumu daha da dərinləşdirəcək; seçkilərdən sonra nələr yaşanacaq? **Politoloq:** “Qarabağ separatçıları Paşinyana problemlər yaratmaqda davam edəcəklər, çünki...”

“Helsinki təşəbbüsü - 92" Dağlıq Qarabağ Komitəsinin koordinatoru, Dağlıq Qarabağ rejiminin rəhbəri Bako Saakyanın yaxın dostu Karen Ohanjanyanın Ermənistan mediasında baş nazir əvəzi Nikol Paşinyanı Qarabağ ermənilərindən üzr istəməyə çağırması və B.Saakyanın işinə qarışmamasını tələb etməsi vəziyyəti daha da gərginləşdirib. Parlament seçkilərinin noyabrın 26-da başlayan təbliğat və təşviqat prosesinin gedişində qondarma Dağlıq Qarabağ rejimin rəhbərliyi ilə Ermənistanın baş naziri arasında gizli savaşın detalları aşkarlanıb. Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, Ermənistanda dekabrın 9-da keçiriləcək parlament seçkilərində "Mənim addımım" Blokunun rəhbəri, baş nazir vəzifəsini icra edən Nikol Paşinyanın seçkilərdə qalib gələcəyi təqdirdə qondarma Dağlıq Qarabağın lideri Bako Saakyanı istefaya məcbur edəcəyi məlum olub. Bundan başqa, Ohancanyanın Paşinyanı Qarabağ ermənilərindən üzr istəməyə çağırması və Bako Saakyanın işinə qarışmamasını tələb etməsinin də təfərrüatı üzə çıxıb.

Bəhs olunan məqaləni feysbuk səhifəsində müzakirəyə çıxaran K.Ohancanyan Paşinyan qalib gələcəyi təqdirdə Dağlıq Qarabağda hakimiyyət dəyişikliyi olacağını, “Sasna Tsrer” silahlı terror qruplaşmasının lideri Jirayr Səfilyanın seçkilərdən sonra erməniləri ayağa qaldıracağını və nəticədə qondarma rejimin rəhbəri olacağını bildirib. “Çünki bir il sonra Qarabağda hakimiyyətin "seçkilər yolu ilə" dəyişdirilməsini gözləməyə vaxt yoxdur" - Səfilyan özü belə deyib. Xatırladaq ki, Səfilyan Dağlıq Qarabağ müharibəsində “Şuşa” əlahiddə batalyonuna rəhbərlik edib.

Nikol Paşinyanın seçki kampaniyası zamanı oğlunu Qarabağda hərbi xidmətə göndərən ilk erməni rəhbər olduğunu vurğulaması və Ermənistanın keçmiş prezidentlərinin, o cümlədən Qarabağ separatçılarının ünvanına daş atması ona qarşı hücumları çoxaldıb. Paşinyan çıxışında bundan əvvəlki Ermənistan rəhbərlərinin heç birinin oğullarının Qarabağda xidmət etmədiyini demişdi. Onun bildirdiyinə görə, Serj Sərkisyanın oğlu olmadığına görə avtomatik olaraq bu siyahıdan kənardadır. Amma Levon Ter-Petrosyanın və Robert Köçəryanın oğlanları da Qarabağda olmayıblar. Ter-Petrosyanın oğlu Tavuş vilayətinin Berd rayonunda xidmət edib. Robert Köçəryanın isə iki oğlundan biri Müdafiə Nazirliyinin binasında hərbi xidmət keçib, amma kazarmada gecələməyib. İkinci oğlu isə Milli Təhlükəsizlik Xidmətinin hazırda ləğv edilmiş xüsusi təyinatlı hərbi hissəsində qulluq edib, o da kazarmada gecələməyib və kefi istəyəndə gedib, kefi istəyəndə qayıdıb.

Nikol Paşinyanın bu çıxışına Dağlıq Qarabağdaki qondarma rejimin nümayəndəsi David Babayan şərh verərək deyilənləri “spekulyasiya” adlandırmışdı. Və Paşinyan qəzəblənərək Dağlıq Qarabağdakı qondarma rejimi hədələmişdi. “Mən və ya mətbuat katibim Dağlıq Qarabağda baş verənlər haqda bilinənləri və bilinməyənləri şərh etsək necə olacaq? Heç bunu təsəvvür edirsiniz? Gedin öz işinizlə məşğul olun. Hansı haqla Ermənistandakı seçki kampaniyasına burnunuzu soxursunuz və mənim çıxışlarımı şərh edirsiniz?" - Paşinyan təqribən belə deyib (Virtualaz.org).

Paşinyanın separatçıları hədələməsi dərhal onun rəqiblərini, əsasən Respublika Partiyasını bərk həyəcanlandırıb. Keçmiş müdafiə naziri, respublikaçıların seçki siyahısına başçılıq edən Vigen Sərkisyan deyib ki, siyasi qüvvələr Qarabağ məsələsi ilə bağlı danışarkən çox ehtiyatlı olmalıdır. Çünki bir neçə gün sonra seçkilər başa çatacaq və Ermənistan Azərbaycanın çox güclü, yaxşı silahlanmış yüz minlik ordusu ilə üz-üzə qalacaq. Amma “kimin oğlu Qarabağda xidmət edib?” polemikası səngiməyib. Robert Köçəryanın oğlu Levon özünün facebook səhifəsində hərbi xidmət dövründə çəkilmiş fotoları yayıb. Bu fotolara əsasən Köçəryanın oğlu çadırda gecələyir və poliqondadır. Levon Köçəryan bildirib ki, o vaxt atası prezident olduğuna görə istəsəydi aspiranturaya girərdi, yaxud təhsilini xaricdə davam etdirərdi. Amma hərbi xidmətə getməyi qərara alıb. “Keçmiş qəzet redaktoru (Paşinyan) yenə mənim barəmdə yalan məlumat yayıb. Milli təhlükəsizliyin xüsusi təyinatlı hərbi hissəsinin tərkibində mən nəzərdə tutulan döyüş hazırlığı proqramını keçmişəm, təkcə hərbi hissədə deyil, Pəmbək dağlarında, çadırlarda da gecələmişəm. Gizlətmirəm ki, zabit heyətinin diqqət mərkəzində olmuşam və düzünü desəm, bu, mənə xoş deyildi” - Köçəryanın oğlu yazıb.

Köçəryanın oğlunun açıqlamasına və yaydığı fotolara Nikol Paşinyanın arvadı Anna Akopyanın baş redaktoru olduğu “Haykakan Jamanax” qəzeti cavab verib. Qəzet yazır ki, redaksiya Robert Köçəryanın oğlanlarının necə xidmət etdiyi barədə məlumatlar alıb. Belə ki, Köçəryanın böyük oğlu Sedrak 2004-cü ildə Yerevan Dövlət Universitetinin iqtisadiyyat fakültəsini bitirib, 2005-ci ildə həqiqi hərbi xidmətə çağırılıb. Və Yerevan polkunun N saylı hərbi hissəsində-Müdafiə Nazirliyinin binasında xidmət edib. Oradan nazirliyin hüquq idarəsinə xidmətə göndərilib. Xidmətə səhər saat 9-da başlayıb və axşam 6-da evlərinə gedib. Və kazarmada gecələməyib. Qardaşı Levon Köçəryan isə 2006-cı ildə Yerevan Dövlət Universitetinin hüquq fakültəsini bitirib və 2008-ci ilin iyun ayına qədər Milli Təhlükəsizlik Xidmətinin hazırda ləğv edilmiş hərbi hissəsində, İrəvanda qulluq edib.

Qəzet onu da bildirir ki, Köçəryanın oğlanları hərbi xidməti başa vuran kimi qısa müddətdə onların hesablarında 10 milyon dollar, hətta daha çox pul meydana çıxıb.

**Göründüyü kimi, Paşinyan çox gərgin atmosferdə seçkilərə gedir. Üstəlik, qalib gələcəyi halda belə, onu seçkidən sonra çox ağır dönəm gözləyir. Ermənistan Respublika Partiyasının (ERP) liderlərindən Armen Aşotyan deyib ki, Paşinyanı Qarabağ və onun problemlərindən kilometrlərlə aralı tutmaq lazımdır.** “Onun qədər Azərbaycan təbliğatçılarına yardım edən heç bir Ermənistan lideri olmayıb. Azərbaycan mətbuatında yazılanlara baxın. Görün, baş nazir haqqında nələr yazırlar” - Aşotyan deyib. O, Qarabağ münaqişəsi ətrafında gedən müzakirələrin gedişindən və Ermənistanın indiki hakimiyyətinin hərəkətlərindən olduqca qəzəbli və narahat olduqlarını dilə gətirib: “Bu hakimiyyət Ermənistanın maraqlarını müdafiə etmək qabiliyyətində deyil. Onlar Qarabağda güddükləri başqa məqsədlərə işi yerli hakimiyyətin (oyuncaq qondarma rejimin) üzərinə yıxaraq nail olmaq istəyirlər”.

**Jurnalistlər Aşotyandan Paşinyanın “keçmiş iqtidarın ordunu talan etməsi” ilə bağlı sözlərinə reaksiyasını öyrənmək istəyiblər.** “Paşinyanın nə Qarabağ, nə də ordu haqqında danışmağa heç bir mənəvi haqqı yoxdur. Əgər müharibə vəziyyəti yaransa və ordumuzun başında Nikol Paşinyan dayansa, o zaman vay bizim halımıza...”, - deyə Aşotyan cavab verib.

Bir sıra ekspertlər N.Paşinyanı sürprizlər gözlədiyini aylar öncə proqnozlaşdırırdılar. Ancaq belə görünür ki, Paşinyan özü Qarabağ klanını zərərsizləşdirmək üçün əvvəlcədən hərəkətə keçib. Bəzi müşahidəçilər hesab edir ki, İrəvanla Xankəndi rejimi arasında baş verənlər ixtilafları daha da dərinləşdirə və sonda Azərbaycana torpaqlarını azad etmək üçün şans yarada bilər.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu “Yeni Müsavat”a bildirdi ki, seçkiyə hazırlaşan Ermənistanın hazırkı baş naziri Nikol Paşinyanı Qarabağdakı vəziyyət narahat etməyə başlayıb:** “Qarabağ separatçılarının nümayəndələrinin Ermənistanın müxtəlif hakimiyyət təmsilçilərini tənqid etmələri Paşinyanın xoşuna gəlmir və o bunu açıq deyir. Halbuki əvvəllər Paşinyan separatçılardan narazılığını açıq dilə gətirmirdi. Hiss olunur ki, Paşinyanın Qarabağdakı mövqeləri zəifdir. O bəlkə də Bako Saakyanı bir başqası ilə dəyişmək istəyərdi. Ancaq o, bunu təkbaşına qərarla həyata keçirə bilmir. Çünki onda bu, çevriliş mahiyyəti daşıyır. Bako Saakyan isə "seçkilərlə" separatçıların lideri postuna yiyələnib".

**Politoloq Paşinyanı əndişələndirən digər bir məqamı da xüsusi vurğuladı:** “Dağlıq Qarabağda Ermənistanın keçmiş prezidentləri Robert Köçəryanla Serj Sərkisyanın mövqeləri güclüdür. Köçəryan və Sərkisyan Qarabağ üzərindən Nikol Paşinyana təzyiq edir. Onun mövqelərini zəiflətməyə çalışır”. Bütün bunlara baxmayaraq, E.Şahinoğlu hesab edir ki, Paşinyan seçkiyə qədər Qarabağ tərəfi ilə konfliktə getməyəcək: “Çünki onda ona qarşı çevriliş planı hərəkətə keçə bilər. Ancaq Ermənistana parlament seçkisindən sonra Paşinyan separatçılarla məsələni həll etmək məcburiyyətində qalacaq. Ona görə ki, separatçılar Paşinyana gələcəkdə problemlər yaratmaqda davam edəcəklər”.

**Ermənişünas alim Qafar Çaxmaqlı isə indiki halda Ermənistanda baş verənlərin Qarabağ klanı ilə Ermənistan erməniləri arasında gərginlik kimi təqdim olunması ilə razılaşmır:** “Ermənistan yeni bir siyasi zamana daxil olur. İllərlə insanların alışıq olduqları siyasi situasiya dəyişərkən mütləq kimlərsə onu qəbul etmək istəmir. Paşinyan erməni cəmiyyətində artıq sümüklənmiş qrupların istədiyi adam deyil. Deməzdim ki, onun hərəkətləri erməni ideolojisində dəyişikliyə səbəb olacaq köklü proseslər gətirəcək. Bir çox məsələlərdə o sələflərinin başqa bir variantıdır. Hakimiyyətini uzunömürlü etmək üçün sələflərinin üzərinə gedəcək. Onların bir çoxlarını siyasi səhnədən çıxarmaq zorundadır. Bizi maraqlandıran bütün bunların bizə xeyri və yaxud zərərinin aydınlaşdırılması və nəticə çıxarılmasıdır”.

**Qarabağ separatçıları ilə Ermənistan arasındakı gərginliklər Azərbaycana nə vəd edir? Bu hadisələr bizə şans yarada bilərmi? Q.Çaxmaqlı hesab edir ki, Paşinyan da o birilər kimi Azərbaycana sərf edən bir siyasət dəyişikliyinə getməyəcək:** “Əlbəttə, onun bəzİ ifadələri və hərəkətləri müvəqqəti mövqe üstünlüyümüzə səbəb ola bilər. Amma bu köklü mövqe üstünlüyü deyil. Ermənistanda nə baş verir ki, biz mövqe üstünlüyü əldə edək? Bir şovinistin yerinə başqa bir şovinist gəlib. Və Qarabağ məsələsində, problemin həll edilməsində heç bir dəyişiklik yoxdur. Paşinyanın Qarabağ separatçıları ilə bağlı mitinqlərdə işlətdiyi ifadələrdə bir şey yoxdur. Seçkiyə hesablanmış populizm hesab etmək olar da, olmaz da. Məncə, Paşinyan hakimiyyəti Qarabağla bağlı seçkidən sonra müəyyən dəyişiklik edəcək, bunun da bizim Qarabağla bağlı siyasətimizə az dəxli olacaq”.

Şübhələr var ki, Qarabağ separatçılarının cəsarətinin arxasında dayanan qüvvələr əslində kənardadır. Xüsusilə də Bako Saakyanın Fransa, ABŞ və Rusiya “turne”sindən sonra Paşinyana meydan oxunması belə qənaəti möhkəmləndirir. Hadisələrin sonrakı gedişatı çox maraqlıdır. Hər halda, 30 il ərzində İrəvanla Xankəndi separatçıları arasında yaşananlar bir ilkdir. Qarabağ separatçıları 30 il əvvəl “Miatsum”- “Birləşmək” şüarı ilə meydana çıxmışdılar. Bu günsə faktiki olaraq parçalanma prosesi gedir...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

## Havanı zəhərləyən obyektlər: onlar heç nəyə məhəl qoymur...

### Nazirlik tərəfindən monitorinqlər aparılsa da, hələ də atmosferi çirkləndirənlərə rast gəlinir



**Ölkə başçısının tapşırığı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin monitorinq aparmasına baxmayaraq, hələ də bir çox restoranlar, iaşə obyektləri təmizləyici qurğuları quraşdırmayıblar. Belə ki, axşam saatlarında Babək prospektində yenə də bəzi restoranlardan qalxan tüstülərin şahidi oluruq.**

Yada salaq ki, noyabrın 28-də prezident İlham Əliyev "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" fərmanda dəyişiklik edilməsi haqqında yeni fərman imzaladı.

Əsasnaməyə əsasən nazirliyin ekoloji tələblərin pozulması ilə əlaqədar müəssisələrdə, qurğu və obyektlərdə təsərrüfat və başqa fəaliyyətlərin məhdudlaşdırılması və ya bu fəaliyyətə xitam verilməsi haqqında vəsatət qaldırmaq hüququ olub. Dəyişikliyə əsasən artıq ETSN məhkəməyə müraciət etmədən ekoloji tələblərin pozulması ilə əlaqədar müəssisələrdə, qurğu və obyektlərdə təsərrüfat və başqa fəaliyyətlərin dayandırılması və ya qadağan edilməsi barədə qərar qəbul edə biləcək.

Qeyd edək ki, bu hüquq artıq ETSN-in təmizlik qurğuları quraşdırmayan şadlıq sarayları və restoranların fəaliyyətini dayandırmaq və qadağan etmək barədə birbaşa qərar qəbul etməyə imkan verəcək. İndiyə qədər nazirlik bununla bağlı məhkəməyə müraciət edirdi. Məhkəmə prosesi isə bir müddət çəkdiyi üçün proses uzanırdı.

Nazirliyin əlində bu qədər səlahiyyət olsa da, bəzi restoranlarla görünür ki, bacarmaq mümkün deyil.

Nazirlikdən aldığımız məlumata görə, artıq təmizləyici qurğuları quraşdıran restoranların sayında artım var. Bununla bağlı yaxın günlərdə ictimaiyyətə geniş məlumat veriləcəyi söylənilib.

10 gün öncə yayılan rəsmi məlumatda isə bildirilmişdi ki, 20 iaşə obyekti təmizləyici qurğuları quraşdırmır və onların fəaliyyətinin dayandırılması üçün sənədlər məhkəməyə hazırlanır. Artıq ölkə başçısının müvafiq fərmanına görə, məhkəməyə müraciət etməyə də gərək qalmayıb. Belə olan halda isə restoranlara yalnız təmizləyici qurğuları quraşdırma qalır. Əks halda, onlar fəaliyyətlərini dayandırmalı olacaqlar.

Onu da qeyd edək ki, "Yeni Müsavat"a müraciət edən sakinlər Neft Emalı Zavodu barəsində də şikayətlərini bildirirlər. Zavoda yaxın məsafədə yaşayan sakinlərin sözlərinə görə, xüsusilə də sübh çağı və gecə yarısı havaya atılan tullantılar onlara əziyyət verir. Sakinlərin sözlərinə görə, zavoddan buraxılan qaz havada bir neçə saat qalır və onlar bu zəhərli havanı udmaq məcburiyyətində olurlar.

Onu da qeyd edək ki, adətən bu cür zavodlar şəhərdən kənarda inşa olunur. Neft Emalı Zavodu da inşa edilən zaman onun ətrafında hazırda olduğu qədər tikililər, yaşayış yerləri olmayıb. Şəhərin genişlənməsi, insanların Bakıya axını nəticəsində artıq zavodun yaxınlığında yaşayış binaları ucaldılıb, sıx yaşayış var. Bu xüsusda bir müddət öncə zavodun başqa bir əraziyə köçürülməsi məsələsi gündəmə gəlsə də, sonradan məsələ unuduldu...

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən şikayətlər əsasında ötən aylarda zavodun məsul şəxsləri cərimələniblər. Sakinlər bildirirlər ki, bu haldan sonra zavoddan yayılan pis qoxu azalıb, lakin tamamilə dayanmayıb.

Əldə etdiyimiz məlumata görə, artıq zavodda yenidənqurma işləri aparılır. Elə havaya tullantıların atılmasının da səbəbi zavodda olan köhnə avadanlıqlardır.

SOCAR zavodun yenidən qurulmasına 2 milyard dollar xərcləməyi planlaşdırır. Yenidənqurma prosesi ilə bağlı istehsalın dayandırılacağı gözlənilir.

Bundan əlavə, havanı zəhərləyən istixanalardan da sakinlər narazılıq edirlər. Bildirilir ki, istixanalardan havaya tüstülər buraxılır ki, bu da xüsusilə yaşlılara və uşaqlara pis təsir edir.

Onu da qeyd edək ki, ötən ayın əvvəlində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Abşeron rayonu, Aşağı Güzdək qəsəbəsində fəaliyyət göstərən istixana sahibi cərimələnmişdi. Məlumatda qeyd edilmişdi ki, araşdırma zamanı sözügedən ərazidə fəaliyyət göstərən istixananın qazanxanasında baş verən nasazlıq səbəbindən atmosfer havasına qara tüstünün atıldığı məlum olub. Faktla bağlı qazanxanaya cavabdeh Ramil Bəkirov barəsində protokol tərtib edilib. O, İnzibati Xətalar Məcəlləsinə əsasən 800 manat məbləğində cərimə olunub.

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

---

**Gürcüstan parlamenti 3-cü oxunuşdan sonra marixuana barədə qanun qəbul edib. Belə ki, narkotik vasitənin istifadəsinə yalnız evdə icazə veriləcək. İctimai yerlərdə, təhsil müəssisəsi, nəqliyyatda istifadəyə görə 800-2000 lari cəza nəzərdə tutulub.Qanuna əsasən, xidməti vəzifələrini yerinə yetirən zaman müəyyən peşə sahibləri - müəllim, həkim, dövlət məmuruna və s. marixuanadan istifadə qadağan olunub.**

Gürcüstanda qəbul olunan qanunda marixuanadan ev şəraitində istifadəyə icazə verilir. Yeni plantasiya əkib-becərmək, daşımaqla bağlı qanunlar qüvvəsindədir. Kimsə düşünməsin ki, marixuanadan istifadəyə icazə verilibsə, daşımağa da, yetişir. Kim istəsə bağında, həyətində yetişdirə bilər. Görünür, Gürcüstan da bu təcrübədən istifadə etmək istəyir. Çünki təkcə Hollandiya deyil, bir çox ölkələrdə marixuananın məhz qapalı yerlərdə istifadəsinə imkan verilir. Ümumi yanaşma belədir ki, digər ağır narkotik maddələrdən fərqli olaraq marixuana insanları, sadəcə olaraq, əyləndirir. Ola bilər ki, hansısa səviyyədə ölkəmizdə də yüngül narkotik maddənin istifadəsinə icazə verilsin. Bu-

# Gürcüstanda marixuana leqallaşdı - Azərbaycanda həbs olunanların sayı artacaq?





**Mahmud Hacıyev:** "Gürcüstana getdin, düşün ki, geri, narkotikdən istifadənin qadağan edildiyi Azərbaycana qayıdacaqsan"
**Rauf Zeyni:** "Azərbaycanda heç bir leqallaşmadan söhbət gedə bilməz"

Nəqliyyat vasitələrini marixuananın təsiri altında idarə edən şəxslərə qarşı cərimə və ya 1 ilədək həbs cəzası nəzərdə tutulur. Narkotik vasitənin təsiri altında avtomobil idarə edən şəxs yol-nəqliyyat hadisəsi törədərsə, 4 ildən 6 ilədək, qəza zamanı insan ölümünə səbəb olarsa, 6 ildən 9 ilədək, iki və ya daha çox insanın ölümünə səbəb olduğu halda isə 8 ildən 12 ilədək həbs cəzasına məhkum olunacaq.

Azərbaycanda da uzun müddətdir ki, Cinayət Məcəlləsinin 234.1-ci (Satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama) maddəsinin dekriminallaşdırılması ilə bağlı müzakirələr aparılır. Hazırda Azərbaycanda qanunvericiliyə görə, bütün növ narkotik vasitələrin istifadəsi qadağandır və qanunla cəzalandırılır.

Gürcüstan qonşu dövlət olaraq Azərbaycanla sıx əlaqələrə sahibdir. Azərbaycanlılar Gürcüstanda istirahəti xoşlayırlar və orada qadağan olunmayan marixuanadan istifadə imkanları da olacaq. Belə bir halda sual yaranır - Gürcüstanda marixuanadan yararlanan Azərbaycan vətəndaşlarını ölkəyə qayıdarkən cəza gözləyirmi?

### "Azərbaycan vətəndaşı anlamalıdır ki, onun Gürcüstanda marixuanadan istifadəsi..."

**Sabiq polis rəisi Mahmud Hacıyev deyir ki, Azərbaycanda da narkotiklərlə əlaqəli qanunları tədricən dekriminallaşdırmaq gərəkdir:** "Gürcüstanda narkotiklərlə bağlı qanunun qəbulundan sonra Azərbaycan vətəndaşlarının bilməsi vacib olan məqamlar var. Məsələn, Azərbaycan vətəndaşı Gürcüstanda yaxın qohumunun, dostunun evinə qonaq gedərkən orada narkotik istifadəsindən çəkinməlidir. Çünki geri qayıtdıqda adi narkotestdən keçirilərsə, qanunda narkotik nümunələri aşkar ediləcək. Buna görə də Azərbaycan qanunlarına görə cavab verməli olacaq. Azərbaycan vətəndaşı anlamalıdır ki, onun Gürcüstanda marixuanadan istifadəsi qanunsuz olmasa da, buna görə Azərbaycanda cəza ala bilər".

### "... Düşün ki, geri, narkotikdən istifadənin qadağan edildiyi Azərbaycana qayıdacaqsan"

**Mahmud Hacıyev deyir ki, marixuana çətənə bitkisinin qurudulmuş çiçəkli baş qismindən və yarpaqlarından əldə edilən, tütünə bənzəyən, yaşımtıl və ya qəhvəyi bir maddədir. Toz marixuana isə kənaf bitkisinin çiçəkli baş qisminin qara və ya qəhvəyi ifrazatının toza çevrilmiş və ya qəlib halıdır:** "Gürcüstanda qonaq getdiyi yerdə də Azərbaycan vətəndaşına deyilməlidir ki, gəlmisən, düzdür, biz narkotikdən istifadə edirik, bizim ölkədə marixuanadan evdə istifadə qadağan deyil, leqallaşıb. Amma düşün ki, geri, narkotikdən istifadənin qadağan edildiyi Azərbaycana qayıdacaqsan. Ola bilər ki, Azərbaycan vətəndaşı qanundan xəbərsizdir və qonaq getdiyi ünvanda da bunu bilmirlər. Bu halda anlaşılmazlıq əmələ gələcək. Gürsatmağa da, külli miqdarda əkib becərməyə də icazə verilib. Belə deyil. Azərbaycanda da gələcəkdə qanunları qəbul edəndə belə məqamlar nəzərə alınmalıdır. Azərbaycanda narkotikdən istifadə, daşıma, əkib-becərmə cinayət tərkibli əməldir. Gürcüstanda yeni qəbul olunmuş qanunda artıq marixuanadan istifadə cinayət tərkibli əməl deyil, inzibati xətadır".

### "Hərə bir "Kazbek" doldurub qoyacaq damağına, çıxacaq "Tarqovı"ya"

**Mahmud Hacıyev dedi ki, Gürcüstanda marixuananın leqallaşdırılması qonşu dövlət kimi Azərbaycan üçün müəyyən çətinliklər yarada bilər:** "Azərbaycanda da müəyyən qadağalarla, müəyyən tələblər qoymaqla leqallaşma istiqamətində addımlar atılmalıdır. Əlbəttə ki, Hollandiyadakı narkotiklərlə əlaqəli qanunu birdən-birə Azərbaycanda tətbiq etmək olmaz. Etsələr, hərə bir "Kazbek" doldurub qoyacaq damağına, çıxacaq "Torqovı"ya. Yeni Gürcüstanda qəbul olunan qanun Azərbaycan üçün də keçərli ola bilər".

### "Bəlkə də bu, ağır narkotik maddələrin istifadəsinin qarşısını almaq üçün effektli vasitə ola bilər"

**Mahmud Hacıyev deyir ki, icazəsinə istifadə verilən marixuana yabanı halda bitir və otaq şəraitində də toxumdan yetişdirilə bilər:** "Marixuana bitkidir, toxumunu əldə edib əkəcəklər. Botaniki xüsusiyyətlərini öyrənib əkib-becərəcəklər. Çox vaxt Azərbaycanın çöllərində, Gürcüstanda da yabanı halda rada bir məsələ də var ki, Gürcüstanda və Avropa ölkələrində insanların qapalı mühitdən istifadəsi geniş yayılıb. Bizdə isə bu, çox da geniş yayılmayıb. Daha çox məişətdə istifadə edirlər. Ola bilər ki, Azərbaycanda bu üsula mərhələ-mərhələ keçilsin. Yəni qapalı mühitdə icazə verilsin və bunun tədqiqatı aparılsın. Bəlkə də bu, ağır narkotik maddələrin istifadəsinin qarşısını almaq üçün effektli vasitə ola bilər".

### "Öz milli-mənəvi dəyərlərimizi qorumalıyıq"

**Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının üzvü, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni isə Azərbaycanda narkotiklərin leqallaşmasına qarşıdır. Deyir ki, bu məsələ müzakirə mövzusu deyil:** "Azərbaycanda heç bir leqallaşmadan söhbət gedə bilməz! İnanıram ki, 2018-2020-ci illər üçün qəbul ediləcək Dövlət Proqramında narkomaniyaya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı kəskin mübarizə xətti əsas götürüləcək. 2019-cu ilin aprelində Azərbaycanda Narkomaniyaya qarşı 36-cı Beynəlxalq Konfrans keçiriləcək. Bütün dünyanın diqqət mərkəzində olan bu konfransın keçirilməsi ilə bağlı artıq dövlət başçısının sərəncamı da var. Təşkilat Komitəsi də fəaliyyətə başlayıb. Azərbaycan ətrafında baş verən prosesləri diqqətlə izləməklə yanaşı, öz milli-mənəvi dəyərlərimizi qorumalıyıq".

**❑ E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 259 (7148) 4 dekabr 2018

# Azərbaycanda ayaqqabı biznesi - araşdırma

## Yerli istehsalı tənəzzüldən çıxarmaq zamanı

**Azərbaycanda yüngül sənaye, onun əsas sahələrindən biri olan ayaqqabı istehsalı üzləşdiyi kəskin tənəzzüldən hələ də çıxa bilməyib. Ölkənin ayaqqabı bazarı, demək olar ki, bütünlüklə xarici idxaldan asılıdır. Daxili tələbatın çox cüzi bir hissəsi yerli istehsal hesabına təmin olunur. Bu istehsalın böyük payı aşağı keyfiyyətli və aşağı qiymətli məhsullardan ibarətdir. Düzdür, fərdi emalatxanalarda yüksək keyfiyyətli məhsul istehsal edən fiziki şəxslər var, lakin bu, dəryada bir damlaya bərabərdir.**



### 23 milyardlıq ayaqqabı aləmi

Qeyd edək ki, dünya üzrə ayaqqabı istehsalı ildə 22-23 milyard cüt təşkil edir. Demək olar ki, bütün aparıcı ayaqqabı istehsalçıları Asiya ölkələrində yerləşir, dünyanın tekstil məmulatları və ayaqqabı ixracatçı-lideri isə artıq uzun illərdir Çindir. Dünyada hər iki cüt ayaqqabının bir cütü Çində istehsal olunur. Avropada təxminən 1,2 milyard cüt ayaqqabı istehsal olunur. Orta və yüksək keyfiyyətli ayaqqabı istehsalında isə dünya lideri İtaliya hesab edilir.

Ötən əsrin 60-70-ci illərinədək ayaqqabı istehsalı Mərkəzi Avropa olub. Həmin dövrdən etibarən isə Yaponiya, Şimali Koreya, Tayvan, Honqkonq ustalarının sayəsində mərkəz rolu Asiyaya keçib. Çin ustaları bu prosesə 80-ci illərdə qoşulsalar da, artıq 10 ildən sonra əsas ayaqqabı istehsalçısı adını ala biliblər. Elə o vaxtdan da Çin bu sahədə liderliyini qoruyub saxlayır. Son 20 ildə Meksika və Braziliya da ayaqqabı istehsalı sahəsində böyük irəliləyişlər əldə edə biliblər. Hazırda Cənub-Şərqi Asiya və Cənubi Amerikada dünya üzrə ayaqqabı istehsalının 85 faizi cəmləşib. Proqnozlara görə, 2020-ci ilədək dünya ayaqqabı bazarının dəyəri 372 milyard dollara çatacaq.

Ayaqqabı istehlakına görə dünya liderliyi ABŞ-dadır - ildə adambaşına 7 cüt ayaqqabı. Ardınca isə adambaşına 5 cütlə Almaniya, Yaponiya və Böyük Britaniya gəlir.

### İlk ayaqqabı fabrikindən indiyə

Azərbaycanda sovet dövrünədək ayaqqabı fərdi emalatxanalarda istehsal olunub. O zamanlar illik istehsal 200 min cütə qədər olub. Qalan ayaqqabılar Rusiyadan gətirilib. 1925-1926-cı illərdə emalatxanalar ləğv edilərək ilk ayaqqabı fabriki yaradılır. 1943-cü ildə Rostov ayaqqabı fabriki Bakıya köçürülərək, 2 saylı ayaqqabı fabriki kimi fəaliyyətə başlayır. 1980-ci ildə yeni fabrik istifadəyə verilir və 2 saylı fabrik bağlanır. 1953-cü ildə Bakıda 3 saylı modalı ayaqqabı fabriki açılır. 1961-ci ildə isə yüngül idman və ev ayaqqabılarını istehsal edən 4 saylı fabrik işə başlayır. Sovet dövründə hazırlanan plana əsasən, Azərbaycanda ayaqqabı istehsalını 1990-cı ildə 25 milyona, 2000-ci ildə isə 29 milyon cütə çatdırılması nəzərdə tutulurdu.

Azərbaycan müstəqillik əldə edəndən az sonra demək olar ki, bütün ayaqqabı fabrikləri özəlləşdirilib, daha sonra isə fəaliyyətini dayandırıb. Hazırda yerli istehsalı kiçik müəssisələr, emalatxanalar davam etdirir. Dövlət Statistika Komitəsindən sorğumuza verilən cavaba görə, ölkədə 15 ayaqqabı istehsalı müəssisəsi fəaliyyət göstərir. Ötən il onların istehsalı cəmi 185,6 min cüt ayaqqabı təşkil edib. Fərdi emalatxanalarla birlikdə istehsal 202,1 min cüt olub. Bu ilin altı ayında isə müəssisələr tərəfindən 67,1 min cüt, fərdi emalatxanalar tərəfindən isə 6,2 min cüt ayaqqabı istehsal edilib. Lakin apardığımız araşdırmalar göstərir ki, bu rəqəmlər real istehsalı tam əhatə etmir. Belə ki, fərdi şəkildə ayaqqabı tikən fiziki şəxslərin istehsalının böyük əksəriyyəti qeydiyyatdan yayındırılır. Eyni zamanda, kölgə iqtisadiyyatının payının yüksək olduğu bir şəraitdə yarımgizli sexlərin, hətta leqal müəssisələrin də istehsal həcminin tam uçota alınmadığı qarşılaşdığımız mənzərədir.

Əhalinin ayaqqabıya olan tələbatının tam və dolğun ödənilməsi üçün elmi cəhətdən əsaslandırılmış normalar işlənib. Səmərəli istehlak normaları istehlakçıların cins-yaş tərkibi üçün müəyyən edilib: bu, kişilər üçün 7 cüt, qadınlar üçün isə 10 cüt təşkil edir. Uşaqlar, məktəblilər, yeniyetmə qız və oğlanlar üçün səmərəli dəst 6 cüt olmalıdır. Azərbaycanda istehsal bu normanın heç 1 faizini belə təmin etmək imkanında deyil.

### Yerli istehsalı qurmaq üçün...

Hökumət yalnız ayaqqabı istehsalının deyil, bütövlükdə yüngül sənayenin inkişafına nail olmaq üçün bir sıra addımlar atır. Bunlardan biri də Mingəçevir Sənaye Parkında yüngül sənaye məhsulları istehsalı müəssisələrinin yaradılmasıdır. Burada həm də illik istehsal gücü 1,5 milyon cüt dəri ayaqqabı olan müəssisənin yaradılması nəzərdə tutulur. Bu müəssisənin yerli xammal əsasında işləyəcəyi gözlənilir. Hələlik müəssisə yaradılmasa da, hökumət ayaqqabı istehsalında mühüm yer tutan gön-dəri xammalının ixracını məhdudlaşdıran addımlar atmağa başlayıb. Belə ki, 2016-cı ildə Nazirlər Kabineti "Azərbaycandan ixrac zamanı ixrac gömrük rüsumuna cəlb olunan malların siyahısı və ixrac rüsumlarının dərəcələri"nə yeni mal mövqeyi əlavə edib. İribuynuzlu mal-qaranın (camış daxil olmaqla) və ya atlar fəsiləsi heyvanlarının dəriləri (təzə və ya duzlu, qurudulmuş, küllənmiş, pikellənmiş və ya digər üsulla konservləşdirilmiş, lakin aşılanmamış, perqamentə hazırlanmamış və ya sonradan emal edilməmiş), tükörtüyü ilə və ya onsuz, ikilənmiş və ya ikiləməmiş halda Azərbaycandan ixrac edilən zaman hər 1000 kq dəri üçün 500 dollar ixrac gömrük rüsumu müəyyən olunub. Qoyun və ya quzu gönündən aşılanmış dəri və ya krast, yunörtüyü olmayan, ikilənmiş və ya ikilənməmiş, lakin sonradan emal olunmamış, o cümlədən nəm halda (xromlanmış yarımfabrikatlar daxil olmaqla) Azərbaycandan ixrac edilən zaman isə hər 1000 kq dəri üçün 150 dollar ixrac gömrük rüsumu alınacaq. Qərar 5 il müddətində qüvvədə olacaq.

Bundan əlavə, ixracı stimullaşdırmaq üçün 2016-cı il tarixli prezident fərmanı ilə üstü təbii dəridən olan ayaqqabılar, təbii dəridən geyim əşyaları və digər məmulatların ixracı zamanı gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 6 faizi məbləğində ixrac təşviqi ödənilir.

İqtisadçı-ekspert Samir Əliyev deyir ki, Azərbaycanda dəri məmulatlarının növləri arasında əsasən ayaqqabı istehsalı geniş yayılıb: "Azərbaycan əhalinin bir nəfərinə düşən ayaqqabı cütünün istehsal həcminə görə MDB ölkələri arasında sonuncu yerləri tutur. MDB ölkələri arasında ilk yerləri bölüşən Belarus və Qırğızıstanda ayaqqabı istehsalının həcmi adambaşına 1 cüt olduğu halda Azərbaycanda əhalinin hər 100 nəfərinə 1 cüt ayaqqabı istehsal olunur".

**Aparılmış müsahibələr və müşahidələr göstərir ki, məhdud həcmdə dəri məmulatlarının istehsalında idxal olunan dəri xammalından istifadə olunur:** "Bunun əsas səbəbi yerli xammalın keyfiyyətinin lazımi səviyyədə olmamasıdır. Ölkəyə idxal olunan dəri məmulatlarının, o cümlədən ayaqqabıların, dəri geyimlərinin isə keyfiyyəti yoxlanılmır. Bu isə ucuz və keyfiyyətsiz malların ölkəyə yol tapmasına, yerli istehsalı sıxışdırıb bazardan çıxartmasına gətirib çıxarır".

Ayaqqabıların natura ifadəsində istehsalının həcmi ilə bağlı statistik məlumat yerli ayaqqabı istehsalının kəskin azaldığını əks etdirir. 2009-cu ildə 857,8 min cüt ayaqqabı istehsal olunduğu halda 2017-ci ildə 202,1 min cütə qədər azalıb. MDB ölkələri arasında ayaqqabı istehsalının həcminə görə Azərbaycan sonuncu yerləri tutur. Qonşu ölkələr arasında ən çox ayaqqabı Rusiyada istehsal olunur. Bu ölkədə 2015-ci ildə 90,3 milyon cüt ayaqqabı istehsalı olunub. Bundan başqa, Ukraynada 22,3 milyon cüt, Belarusda 9,9 milyon cüt, Qırğızıstanda isə 6,1 milyon cüt ayaqqabı istehsal olunub.

**Ekspert bildirir ki, ölkəyə idxal olunan dəri məmulatlarının, o cümlədən ayaqqabıların keyfiyyəti yoxlanılmır:** "Sahibkarlar malın qiymətinin ucuz olması üçün xaricdən yüksək keyfiyyəti olmayan mallar gətirirlər. Həmin mallar qiymət baxımından yerli istehsalı sıxışdırıb çıxarır. Ancaq həmin məmulatların keyfiyyətinin aşağı olması sonra istehlakçılarda müxtəlif xəstəliklər yaradır. Nazirlər Kabinetinin 2016-cı ildə qəbul etdiyi qərarı ilə dəri məmulatlarına daxil olan ayaqqabılar sanitar nəzarətinə aid malların siyahısına daxil edilsə də, reallıqda ayaqqabılar nəzarətdən kənarda qalıb".

Daxili istehsalın idxal xammalından asılı olmasına rəğmən, yerli xammal ixrac olunur. Rəsmi məlumatlara görə, ötən il Azərbaycandan xaricə 14 milyon 979.06 min dollarlıq emal olunmamış gön (təbii xəzdən başqa) və aşılanmış dəri ixrac olunub. Bu məhsulların idxalı isə 499 min dollar təşkil edib. Bu ilin yanvar-iyununda isə ixrac 6 milyon 957.68 min dollar, idxal isə 496.58 min dollar təşkil edib. İxracın böyük hissəsi İtaliyayadır.

Azərbaycan ayaqqabını ən çox Çindən idxal edir. Ayaqqabı məmulatlarının 35,4 faizi bu ölkədən gətirilir. İkinci yerdə Türkiyə, üçüncü yerdə İtaliya gəlir. Ötən il Azərbaycana 67 milyon 11.62 min dollarlıq ayaqqabılar, getrlər və analoji məmulatlar, onların hissələri idxal olunub. Bu məhsulların ixracı isə cəmi 331.37 min dollar təşkil edib. Cari ilin birinci yarısında analoji məhsulların idxalı 35 milyon 524.3 min dollar, ixracı isə 84.94 min dollar olub. Maraqlıdır ki, Azərbaycandan ayaqqabıların demək olar ki, hamısı Türkmənistana ixrac olunur.

**S.Əliyev qeyd edir ki, ölkədə ayaqqabı istehsalını stimullaşdıran dövlət tədbirləri davam etdirilməlidir:** "Bu baxımdan, yüngül sənaye sektorunun, o cümlədən dəri məmulatları sənayesinin inkişafına fokuslaşmış dövlət proqramının qəbul edilməsi vacibdir. Bundan əlavə, idxal olunan dəri məmulatlarının keyfiyyətinə nəzarətin gücləndirilməsi və müvafiq milli keyfiyyət standartlarının qəbulu, dəri xammalının ixracını məhdudlaşdıran fiskal tədbirlərin davam etdirilməsi zəruridir. Milli brendlərin yaradılması, tanıdılması və onlara inamın artırılması üçün infrastrukturun, stimullaşdırma və keyfiyyətə nəzarət mexanizmlərinin yaradılması, dəri məmulatlarının rəqabət qabiliyyətini artıran, yüksək enerji, əmək və materialtutumlu istehsalı aradan qaldırmağa imkan verən müasir texniki və texnoloji yeniliklərin ölkəyə gətirilməsinin dövlət tərəfindən stimullaşdırılması da vacib tədbirlərdəndir".

**Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 259 (7148) 4 dekabr 2018

# Qaşıqçının ölümündə "WhatsApp" izi

## Səudiyyəli jurnalistin Kanadada yaşayan dostu ilə yazışmaları izlənilirmiş



**"CNN International" Camal Qaşıqçının Kanadanın Montreal şəhərində yaşayan səudiyyəli fəal Ömər Əbdüləzizə WhatsApp-dan göndərdiyi mesajlarda Səudiyyə Ərəbistanını və Vəliəhd Şahzadə Məhəmməd bin Salmanı sərt şəkildə tənqid etdiyini bildirib. CNN qəzetçinin öldürülməsi üçün bu mesajlaşmaların da bir səbəb ola biləcəyini iddia edib.**

Musavat.com Türkiyə mətbuatına istinadən xəbər verir ki, 2017-ci ilin dekabr ayından etibarən Qaşıqçı ilə kontaktda olan Əbdüləziz Səudiyyə Ərəbistanının İstanbul konsulluğunda öldürülən jurnalistlə aralarındakı səs yazısı, şəkil və videoların olduğu 400-dən artıq WhatsApp mesajını CNN-lə bölüşüb.

Əbdüləziz Qaşıqçı ilə 2018-ci ilin avqustuna qədər WhatsApp vasitəsilə danışdığını, amma telefonunun izlənildiyinin fərqinə varan kimi daha etibarlı yollarla ünsiyyəti davam etdirdiklərini deyib.

Toronto Universitetinə bağlı olan "Citizen Lab" adlı qurum telefonun izləndiyini ortaya çıxarıb. Bundan sonra Əbdüləziz Qaşıqçı ilə münasibətləri haqqında danışmağa qərar verib, sözügedən yazışmanın isə İsrailin NSO firması tərəfindən yazıldığı müəyyənləşdirilib. Əbdüləzizin də bu firmanı məhkəməyə verdiyi üzə çıxıb.

CNN-ə görə, sözügedən yazışmalarda Qaşıqçının səudiyyə vəliəhdinin narahat davranışlarına görə özünü pis hiss etdiyi üzə çıxıb. Əbdüləzizlə Qaşıqçı arasında may ayında yaşanan bir dialoqda bir qrup səudiyyəli fəalın öz ölkəsində həbs olunmasına münasibət bildirən Qaşıqçı vəliəhd şahzadə haqqında "Nə qədər çox qurbanını yesə, daha çoxunu istəyən bir canavar 'Pac-Man' kimi. Bu zülm onun özünə dəstək verən insanlara da çatsa, təəccüblənmərəm" yazıb.

Qaşıqçı bir başqa mesajında isə vəliəhd-şahzadə Məhəmməd bin Salman (MBS) haqqında "Gücə, təzyiqə aşiqdir və bunları göstərməlidir. Amma zorbalığın bir məntiqi yoxdur" yazıb.

Əbdüləziz CNN-ə verdiyi açıqlamada Qaşıqçı ilə aralarındakı danışıqlarda Səudiyyə rəhbərliyini cavabdeh tutacaq bir onlayn gənclik hərəkatı planlamaya başladıqlarını vurğulayıb. O, "Camal Məhəmməd bin Salmanın problem olduğuna inanırdı və bu uşağın dayandırılmasının vacibliyini deyirdi" söyləyib.

Avqust ayında aralarındakı danışıqların izlənildiyindən şübhələndiyini və 2 ay sonra Qaşıqçının öldürüldüyünü deyən Əbdüləziz aşağıdakıları vurğulayıb: "Telefonumun hacklanması Camalla bağlı məsələdə önəmli bir ol oynadı. Həqiqətən də çox kədərliyəm. Bu günahkarlıq hissi məni öldürür".

Əbdüləziz may ayında Səudiyyə rəhbərliyinin bəzi təmsilçilərinin onunla Montrealda görüşdüklərini və MBS-nin Əbdüləzizin twitter paylaşımlarını təqib etdiyini deyib.

Sözügedən yetkililərlə aralarında yaşanan dialoqu qeydə alan Əbdüləziz bu yetkililərdən birinin ona "Sənə Məhəmməd bin Salmandan bir mesaj və təminatla gəldik" dediyini, bir başqasının da "Əgər Səud əl-Kahtani sənin adını eşidərsə, anında tanıyar və Məhəmməd bin Salmanla birbaşa tanış ola bilərsən" dediyini çatdırıb.

**Əbdüləziz eyni zamanda deyib ki, səudiyyəli yetkililər bəzi sənədlər üçün ona səfirliyə getməsinin vacibliyini deyiblər:** "Bunu Qaşıqçıya dedim. Mənə dedi ki, getməyim və onlarla cəmiyyətdə açıq yerlərdə görüşüm".

Səudiyyəli jurnalist Qaşıqçıdan 2 oktyabrda Səudiyyə Ərəbistanının İstanbul baş konsulluğuna girdikdən sonra xəbər alınmayıb. Səudiyyə Ərəbistanı rəhbərliyi 18 gün sonra qəzetçi Qaşıqçının konsulluqda öldürüldüyünü qəbul etmək zorunda qalmışdı.

Kanada İstanbulda qətlə yetirilən jurnalist Camal Qaşıqçı cinayəti ilə əlaqədar 17 Səudiyyə Ərəbistanı vətəndaşına sanksiya tətbiq edib. Bu barədə ölkənin xarici siyasət idarəsindən bildirilib. Məlumata görə, 17 vətəndaşın Kanadadakı bütün hesabları dondurulacaq. Bundan başqa, onların Şimali Amerika ölkələrinə girişi məhdudlaşdırılacaq.

❑ **Sevinc TELMANQIZI, Musavat.com**




## "Bakcell" abunəçiləri yüzlərlə "Ulduzum" tərəfdaşının eksklüziv endirim və imtiyazlarından yararlanır

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti ölkənin ən genişmiqyaslı loyallıq proqramını həyata keçirməklə öz abunəçilərini 250-dən artıq yerli və beynəlxalq tərəfdaşın 400-dən artıq satış və xidmət nöqtəsində təklif olunan eksklüziv endirimlər və imtiyazlarla təmin edir.**

**Artıq 5 ildir ki, Azərbaycanda ən uğurlu loyallıq proqramlarından biri hesab olunan "Ulduzum"a 3 milyona qədər "Bakcell" abunəçisi qoşulub. Proqramın istifadəçiləri populyar restoran və otellər, nüfuzlu geyim, parfümeriya və elektronika mağazaları ilə yanaşı, sağlamlıq, idman və əyləncə mərkəzləri, ən populyar kinoteatrlar, banklar, kitab dükanları, kabel televiziya provayderləri və digər sahələrdə fəaliyyət göstərən tərəfdaşımızın təklif etdiyi özəl kampaniyalar və endirimlərdən yararlanmaq imkanına malikdirlər.**

**"Ulduzum" proqramının ən aktiv tərəfdaşları siyahısında yer alan "Hesab.az" portalı, "Park Cinema" kinoteatrlar şəbəkəsi, "166 Yük Taksisi" xidməti, "İdeal" və "Poppy Gallery" mağazalar şəbəkəsi cari mövsümdə istifadəçilərin sayı üzrə ən yüksək nəticə göstərib.**

**Qeyd edək ki, 2018-ci ilin may ayından etibarən "Ulduzum" tərəfdaşı olan "166 Yük Taksisi" xidmətinin 12000 nəfərdən çox müştərisi bu günə kimi proqram vasitəsilə müxtəlif endirimlərdən yararlanıb. Həmin abunəçilərə heç bir əlavə şərt olmadan yük taksisi və evakuasiya xidmətlərinə 10%, təmizlik xidmətlərinə isə 15% endirim təqdim olunur.**

**"Ulduzum" Loyallıq Proqramı geniş partnyor şəbəkəsi ilə öz istifadəçilərinə böyük imkanlar yaradır. Proqram tərəfdaşlıq etdiyi hər bir şirkət üçün müştəri loyallığının artırılmasında mühüm rol oynayır. Müştərilərimiz endirimdən istifadə etməyə çox maraq göstərirlər. "166 Yük Taksisi" olaraq Bakcell şirkətinin "Ulduzum" proqramı ilə əməkdaşlığımızı yüksək qiymətləndiririk", deyə "166 Yük Taksisi" şirkətinin Marketinq meneceri Rüfət Əliyev bildirib.**

**Proqramın digər ən aktiv partnyorlarından olan "Park Cinema" kinoteatrlar şəbəkəsi 16000-dək "Ulduzum" istifadəçisinə 3 kinoteatrda (Park Bulvar, Metropark, Park Zağulba ticarət mərkəzlərində yerləşən kinoteatrlar) həftənin hər cümə axşamı bütün seanslara hər 2-ci bileti pulsuz əldə etmək imkanı təqdim edilib.**

**"Müştərilərimiz arasında bu kampaniyaya böyük maraq var və aldığımız müştəri rəyləri arasında bu imkanın digər günlərə şamil edilməsi təklifləri də çoxdur. İstənilən şirkətin bazarda rəqabət aparmaq üçün müştəriyönümlü olması çox vacibdir. Çünki bu, müştəriyə şirkət tərəfindən verilən dəyərin göstəricisidir. Bakcell Azərbaycanın ilk mobil operatorudur, "Park Cinema" isə 1-ci kinoteatr şəbəkəsidir. Bazarın liderləri ilə çalışmaq hər zaman yeniliklərə imza atmaq deməkdir. Biz hər zaman Ulduzum və Bakcell şirkəti ilə yeni kampaniyalar keçirməyə və bu layihəyə dəstək olmağa hazırıq", deyə Park Cinema kinoteatrlar şəbəkəsinin Satış və Marketinq Direktoru Musa Axundov bildirib.**

**"Ulduzum" proqramının üstünlükləri müştərilərə təkcə böyük endirimlər və imtiyazlar verməkdən ibarət deyil. Proqramın əsas məqsədlərindən biri də abunəçilərin gündəlik həyatına rahatlıq gətirməkdir. Proqram ölkənin ilk və ən innovativ mobil operatoru ilə onun böyük və dəyərli müştəri ailəsi arasında loyallıq, etibar və şəffaflığa əsaslanan möhkəm münasibətlərin qurulmasına xidmət edir. "Ulduzum"un daha bir özəlliyi ondan ibarətdir ki, proqramdan təkcə Bakcell abunəçiləri yox, həm də endirim təqdim edən tərəfdaşlar faydalanır.**

**Hər bir "Bakcell" müştərisi "Ulduzum"a qoşula bilər. Bunun üçün heç bir abunə haqqı tələb edilmir. Loyallıq proqramında iştirak etmək üçün "1" rəqəmini 5555 nömrəsinə SMS vasitəsilə göndərmək kifayətdir. Ulduzum barədə daha ətraflı məlumat www.ulduzum.az ttp://www.ulduzum.az səhifəsində əldə oluna bilər.**

## Bakıda "KamAZ"la "Chevrolet" toqquşdu - 3 nəfər öldü

**Bakıda 3 nəfərin ölümü ilə nəticələnən yol qəzası olub. "Report"un məlumatına görə, hadisə Qala-Pirallahı yolunun 14-cü kilometrliyində qeydə alınıb. Namiq Zülfüqarovun idarə etdiyi "Chevrolet" markalı, 90 RR 974 dövlət nömrə nişanlı avtomobil Ümid Alxasovun idarə etdiyi "KamAZ" markalı, 27 BM 301 dövlət qeydiyyat nişanlı yük maşını ilə toqquşub. Qəza nəticəsində minik avtomobilinin sürücüsü və sərnişinləri - Cəlilov Tərlan Zakir oğlu, Qarayev Şahin Canəhməd oğlu və Qarayev Anar Qərib oğlu hadisə yerində ölüblər. Digər sərnişin Qəribov Emin Qəribşah oğlu isə xəsarətlə xəstəxanaya yerləşdirilib.**

Faktla bağlı Pirallahı Rayon Polis İdarəsinin istintaq şöbəsində cinayət işi başlanıb, araşdırmalar davam etdirilir.




## "Nar Wi-Fi" ilə 4G artıq evinizdə

**Ölkənin ən gənc və innovativ mobil operatoru "Nar" yüksək sürətli internetə çıxış imkanı verən "Nar Wi-Fi" internet paylayıcısını təqdim edir. Bu avadanlıq sayəsində 30-dan artıq cihaz eyni anda istənilən məkanda sərfəli qiymətə yüksək sürətli internetə (LTE / 4G) çıxış əldə edəcək.**

**Yeni mənzilə və ya ofisə köçənlər, yaxud evində ənənəvi internetə qoşula bilməyənlər üçün "Nar Wi-Fi" ruterini özünüzlə götürmək yetərlidir ki, qısa müddətdə 4G interneti evinizdə olsun. Avadanlıq "Nar" 4G-LTE şəbəkəsinin əhatə etdiyi hər yerdə internetə çıxış əldə etmək imkanı verir. "Nar Wi-Fi" ev, bağ, ofis və biznes məkanlarını fiber optik kimi 20 Mbps sürətli internetlə təmin edən naqilsiz texnologiyadır.**

**Avadanlığı abunəçinin özü rahat şəkildə quraşdıra bilər. Abunəçilər avans ödəniş etməklə həm qurğunu əldə edəcək, həm də 6 aya qədər internetə çıxış imkanı qazanacaqlar. Müvafiq tarifli SIM kartı ruterə daxil etdikdən və enerji mənbəyinə qoşduqdan sonra qurğu avtomatik olaraq işə düşəcək. Azərbaycada kiçik və orta biznesin inkişafı üçün yüksək sürətli internetə çıxış imkanı verən "Nar Wi-Fi"-ın müştərinin növünə (pərakəndə və ya biznes) görə fərqli, sərfəli qiymətləri, sürət və internet həcminə görə isə müxtəlif paket variantları var. Qeyd edək ki, "Nar Wi-Fi" ilə internet ADSL ilə müqayisədə daha sürətlidir və abunəçilərə 60 GB-a qədər limitsiz internet paketləri təqdim edilir.**

**"Nar Wi-Fi" və cihazın satış məntəqələri haqqında daha ətraflı məlumatı nar.az ar.az/nar-wi-fi saytından öyrənmək olar.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7300-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.**

YENİ MÜSAVAT
N 259 (7148) 4 dekabr 2018

# “Ölüm qrupu”ndan necə sağ çıxmalı...

## Azərbaycan Millətlər Liqasında gözlədiyimiz nəticəni vermədi, Qurban Qurbanovun gəlişi ilə bu komandada dəyişən heç nə yoxsa...

**Dekabrın 2-də Avro-2020-nin seçmə mərhələsinin püşkü atıldı. Püşkatmada UEFA-nın üzvü olan 55 ölkənin yığma komandası 10 qrupa bölünüb. Bu qruplardan beşində 5, beşində 6 komanda yer alıb. Seçmə mərhələnin oyunlarından sonra hər qrupdan ilk iki yeri tutan komanda final mərhələsinə yüksələcək.**




***

Püşk Azərbaycanı çətin rəqiblərlə bir qrupa saldı. Yığmamız Xorvatiya, Uels, Slovakiya və Macarıstanla E qrupunda yer alıb. Mən buna “ölüm qrupu” deyirəm. “Niyə ölüm qrupumu” deyə sual edirsiz? Çünki bizim üçün indi hansı qrupa düşsək, “ölüm qrupu” kimidir, “sağ çıxmaq” çətin olacaq...

Bu qrupda Azərbaycanın şansı var deyənlər varsa, Allah onların da, milli komandanın da köməyi olsun. “Deməzdim ki, bu, ”ölüm qrupu"dur. Yaxşı nəticəyə ümid etmək olar. Ən əsası inanmaqdır. Hər kəsin öz fikri var. Kimsə fikirləşirsə ki, bizdə hər şey əla alınacaq, bu normaldır. Eyni zamanda əksini düşünənləri də anlayıram. Qrupda birinci, ikinci və üçüncü yerləri tuta bilərik. Hər şey mümkündür". Bunu milli komandamızın üzvü Ramil Şeydayev qol.az saytına açıqlamasında deyib.

Əgər Millətlər Liqasında Maltaya 4 xal verən millidən, Kosovoya 4:0 uduzan milli komandadan danışırıqsa, burada Qurban Qurbanovun köməyi az olar, gərək qurban olduğumun da hər oyunda bu rəqiblərin başına göydən daş yağdıra ki, bəlkə nəyəsə ümid edə bildik. Sərt və ironik mövqe kimi görünə bilər, amma bugünkü reallıq təəssüf ki, belədir. Yox, martadək millidə inqilabi dəyişikliklər olsa-hansı ki, bu devrim deyil ki, yıxıb yerinə yeni rejim qurasan-o zaman sözümü geri götürə, fikrimi dəyişə bilərəm.

Azərbaycan Millətlər Liqasında gözlədiyimiz nəticəni vermədi, Qurban Qurbanovun gəlişi ilə bu komandada dəyişən heç nə yox! Halbuki zaman-zaman ümidləndik də, “qaz” da verdik, motivasiya da. Nəticə isə yoxdur! Qurban Qurbanov nə edə bilərdi ki? Dəfələrlə milli haqda yazanda qeyd etmişik ki, “material” nədirsə, oyun da ondan artıq ola bilməz.

Bu qrupda nə edə bilərik? Hərə bir cür qiymətləndirib: məsələn, millinin baş məşqçisi deyib ki, maraqlı qrupa düşmüşük. Maraqlı? Hə, dünyanın adlı-sanlı klublarında oynayan xorvatlar, slovaklar, uelsliləri Bakıda yenidən görmək doğrudan maraqlı olacaq. Amma biz oyunuları maraqlı edə biləcəyikmi, bax bunun cavabı hələ ki yoxdur. “Maraqlı qrupa düşdük. Bütün komandalar tanışdır. Hər bir komandaya qarşı yaxşı mübarizə aparmaq olar. Mart ayınadək komandanı tam formalaşdırmalı və rəqibləri daha yaxından tanımağa başlamalıyıq” deyən, baş məşqçimiz onu da əlavə edib ki, rəqiblərin gücünü bugünkü reallığa görə dəyərləndirmək lazımdır: “Elə komandalar var ki, futbolçular həmin rəqiblərə qarşı oyunlarda daha inamlı olurlar. Bu amil xüsusən xal aldığın komandalarla görüşlərdə daha çox özünü büruzə verir. Ancaq illər keçir, nəsil dəyişimi baş verir. Ona görə biz rəqiblərin gücünü bugünkü reallığa görə dəyərləndirməliyik”.





Əgər baş məşqçi Xorvatiya millisinin və ya Uelsin ulduz oyunçularının qocalmasına işarə edirsə, belə məsələlərə ümid edə bilmərik. Nəsil dəyişimi baş verir, doğru... Amma gedənlərin yerinə daha güclü və gənc nəsil gəlir. Şuker getdi, yeri boş qalmadı ki...Madjukiç gedəcək yerinə daha güclüsü gələcək. Çünki...futbolu bizim kimi oynamırlar, futbola bizim kimi üstdən aşağa deyil, aşağıdan(uşaq futbolundan) yuxarı baxırlar. Ölkədə idmana bu qədər pul ayrılır, dövlət babanın diqqətindən kənarda deyil, amma bizdən kasıb, bizdən az inkişaf edən, hətta federasiyası 3-4 ildir yaranan komandalar belə bizdən bir baş üstün oynayır. Almeydanı milliləşdirməklə biz uzağa-Avropa və ya dünya çempionatına gedə bilmərik, elə-buralarda qruplarda oynayıb sonra yenə əvvələ qayıdarıq. Gerçəklik nə yazıq ki, bu qədər acı...

***

**Başqa məşqçilər də danışıb. Uels millisinin baş məşqçisi Rayan Qiqqz deyib ki, Xorvatiya qrupun əsas favoritidir. Azərbaycan millisi haqda da fikirlərini belə açıqlayıb:** “Uzun yol bizi qorxutmur. Azərbaycanda gözəl şərait, yüksək səviyyəli hotellər, yaxşı meydançalar və yeni stadionlar var. Bir sözlə, orada hər şey yaxşıdır. Yəqin ki, Azərbaycana oyundan bir gün əvvəl gedəcəyik. Qalan hər şey gözlədiyimiz kimi oldu”. Zalım oğlu, ölkədən danışıb, komandamız haqda heç nə deməyib. Nə pis, nə yaxşı...

“Qrupun favoriti Xorvatiyadır. Onların xüsusi təqdimata ehtiyacı yoxdur. Dünya çempionatının gümüş medalçısı qrupdakı komandalardan tamamilə fərqli səviyyədədir. Digər yığmalara qarşı isə hər şey özümüzdən asılı olacaq”. Bu sözləri isə Macarıstan milli komandasının baş məşqçisi Marko Rossi deyib. Baş məşqçi əlavə edib ki, qrupda rəqibləri xorvatlar və slovakiyalılar olacaq. «Amma Azərbaycanı da zəif rəqib hesab etməməliyik».

Slovakiya millisinin baş məşqçisi Pavel Hapal da Avro-2020-nin seçmə mərhələsində yığmamızın da yer aldığı E qrupunu dəyərləndirib. “Beş komandanın olduğu qrupa düşdük. Buna görə yoxlama matçı da keçirə bilərik. Püşkdən məmnun olmalıyıq. Balanslı qrupa düşmüşük. İspaniya və Almaniyanın yer aldığı qruplar çox güclüdür. Məndə pis hisslər yaranmışdı. Qorxurdum ki, Almaniya ilə eyni qrupa düşərik”-deyə, Pavel Hapal bildirib.

**Gözləyək... Marta o qədər də çox zaman qalmayıb.**

**❑ Nazìm SABÌROĞLU,
“Yenì Müsavat”**







YENİ MÜSAVAT

Son səhifə

N 259 (7148) 4 dekabr 2018

# Ayı baxıcısını öldürdü

Yaponiyada Himalay ayısı öz baxıcısını öldürüb. İnsident ölkənin paytaxtı Tokioda baş verib. Qonşuları 56 yaşlı Soiçiro Morinin dəhşət içində necə qışqırmasını və kömək istəməsini eşidiblər. Onlar evə daxil olublar, yaralı kişini ayı ilə bir qəfəsin içində görüblər və həkimlərlə polisi yardıma çağırıblar. Qanı axan baxıcını xəstəxanaya çatdırsalar da, onu xilas etmək mümkün olmayıb.



15 yaşlı Himalay ayısı 1.3 metr uzunluğunda və 50 kilo çəkisində olub. O, 70 yaşlı ev sahibinə məxsus olub. Ev sahibi Morini ayısına baxması üçün tutubmuş. Baxıcının icazəsi var imiş ki, ayını evdə saxlasın.

Himalay ayıları İrandan Yaponiyaya qədər hər yerdə yayılıb.



# Beyin iltihabına düçar oldu, bütün həyatını unutdu

"Daily Mail" qəzetinin xəbərinə görə, 13 yaşındakı Şarlotta Parsonsun ölümcül xəstəliyi atasını tanımadığı vaxt ortaya çıxıb. Ata Den səhər qızını məktəbə qoyandan 2 saat sonra məktəbdən qızının xəstələnməsi ilə bağlı zəng gəlib. Məktəbə gələn atanı isə qızı tanımayıb. Kriz keçirən və şüur bulanıqlığı yaşayan Şarlotta dərhal xəstəxanaya aparılıb. 13 yaşlı qız ancaq anasını tanıyıb və keçmiş pişiklərindən danışıb. 10 gün boyunca xəstəxanada qalan Şarlotta iflic və miningit testləri edilib. 1 ay boyunca antibiotikdən istifadə edəndən sonra isə qızda beyin iltihabı olduğu ortaya çıxıb. Ölümcül bir xəstəlik olan və olduqca nadir rast gəlinən beyin iltihabı isə yaddaş itkisinə səbəb ola bilir. İmmunitet sistemi nisbətən zəif olan uşaqlar və yaşlılar isə beyin iltihabına daha meyllidirlər. İlk vaxtlar qripə bənzər simptomlarla ortaya çıxan xəstəlik gün keçdikcə iflic, əhval dəyişikliyi, xarakter və davranış dəyişiklikləri formasında özünü göstərir. 20 həftə boyunca infeksiya ilə mübarizə aparan Şarlotta bu müddətdə məktəbdən də məhrum olub.

# Çox portağal yemək sümüklərə ziyan imiş



Alimlər portağaldan həftədə 2-3 dəfə istifadə etməyi məsləhət görüblər. Britaniya alimləri bu qərara gəliblər ki, dünyada çox məşhur olan limon və xüsusilə də portağal insanların sümük sisteminə zərər vura bilər. Alimlər tərəfindən 22 il ərzində 78 min qadının sağlamlığı müayinə edilib. Alimlərin müşahidəsinə görə, tədqiqatın 778 iştirakçısının dişlərinin vəziyyəti kəskin pisləşib. Təhlil göstərib ki, bu meyvələrdən daimi istifadə edən qadınların 41%-nin dişlərində və diş ətlərində problem müşahidə edilib. Problemin əsas səbəbkarı kimi portağalda olan fruktoza sayılıb. Alimlər qadınlara problemdən qurtulmaq üçün portağaldan həftədə 2-3 dəfə istifadə etməyi məsləhət görüblər.

# Piton 3 ayda 3 maral yeyib

Amerikada uzunluğu 4 metrə yaxın olan piton tapılıb. Pitonun eyni gündə 3 maralı yediyi məlum olub. Uzunluğu 457 santimetr olan pitonun içində birinin çəkisi 45, digər ikisinin isə 17 və 13 kilo olan maral qalıqları aşkar olunub. Milli Parkın əməkdaşları ilanı zərərsizləşdirib parkdan çıxarıblar. Alimlər ehtimal edirlər ki, ilan bu üç heyvanı tutub boğub və onları üç ay ərzində bir-bir yeyib. Böyük ehtimalla ilan onları su kənarında pusub, daha sonra isə boğaraq öldürüb. Bioloq Skott Bobek isə deyib ki, əgər pitonlar üç ay ərzində üç maral yeyə bilirlərsə, deməli, bizim bilmədiyimiz çox şey yeyə bilərlər. Qara pitonun uzunluğu 3.7 metrdir. Bu nümunənin rekord uzunluğu isə 5.74 metrdir.

# Dünyanın ən yaşlı pişiyi it-bata düşdü

27 yaşlı Velvet ləqəbli pişik öz sahibindən qaçıb. 2015-ci ildə onu dünyanın ən yaşlı pişiyi elan etmişdilər. Amerikanın Oreqon ştatı sakini olan Eşli Okura ev heyvanının şəklini İnstaqramda paylaşıb və bildirib ki, pişik 9 oktyabrda açıq qapıdan qaçıb. Həmin gündən etibarənsə onu görmək mümkün olmayıb: "Mən çox pis darıxıram və ümid edirəm ki, pişiyim geri qayıdacaq. Amma məntiq deyir ki, Velvet geri qayıtmayacaq".

Pişik Ginnesin Rekordlar kitabına 2015-ci ildə düşüb. Sahibinin sözlərinə görə, Velvet 1989-cu ildən bəri onunla yaşayır. Həmin vaxt indiki sahibəsinin 7 yaşı olub. Velvet siçan tutmağı və oyun oynamağı sevirmiş. Bu il may ayında isə onun rekordunu 30 yaşlı, Skuter ləqəbli siam pişiyi əlindən alıb. O da Teksas sakini Qeyl Floyda məxsus olub. Həmin pişiksə dünyanın ən yaşlı pişiyi adını alandan bir neçə gün sonra tələf olub.




QOÇ - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün ziyarətə getmək, dua oxumaq sizə rahatlıq gətirəcək.

BUĞA - Ulduzların düzümü riskdən uzaq olmağı tövsiyə edir. Əks təqdirdə, cəhdləriniz boşa çıxacaq. Nahar ərəfəsində isə perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə qənaətcil olun.

ƏKİZLƏR - O qədər də uğurlu gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlərdə ehtiyatlı olun. Sizə aidiyyəti olmayan məsələlərə müdaxilə etməyin.

XƏRÇƏNG - Göy qübbəsi daha çox şəxsi büdcənizdə artım olacağını vurğulayır. Odur ki, bütün enerjinizi məhz deyilən istiqamətə yönəltməyə çalışın. Axşama yaxın aldanma ehtimalınız da var.

ŞİR - İş yoldaşlırınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, Yaradan xatirinə təmkin göstərib neytrallığınızı qorumağa çalışın.

QIZ - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

TƏRƏZİ - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şans qazanacaqsınız. Səfərə çıxmaq olar.

ƏQRƏB - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. İşlə bağlı məsuliyyətinizi dərk edin.

OXATAN - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər qalan işlərinizin normal olacağını bildirir. Pul məsələlərində isə ehtiyatlı olun.

OĞLAQ - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. Müştərək fəaliyyətdən uzaq olun.

SUTÖKƏN - Yaxşı olar ki, əsas vaxtınızı fəaliyyət sahəsinə xərcləyəsiniz. Münasibət qurmaq, hansısa qlobal problemi həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu ərəfə deyil. Yalan vədlər verməyin.

BALIQLAR - Himayədarınız olan Yupiterin aktivləşməsi sizlərdə dini-mistik dəyərlər aşılayacaq. Bu səbəbdən də Tanrıya zidd olan addımlar atmamalısınız. Yaxşı olar ki, müqəddəs ocaqlara gedəsiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Dağlarda yaşamaq ömrü uzadır



Alimlər ayrı-ayrı araşdırmalar çərçivəsində insan həyatını uzatmaqla bağlı nəticələrə gəlib. Bunlar "Ömrü uzatmağın 10 yolu" adı altında toplanıb. Sözügedən yollardan biri insanın tez-tez ac qalmasıdır. Dünyanın ən uzun yaşayan insanlarının yaşadığı Okinavada xalq tam doymadan yeməkdən əlini çəkir. İkinci yol dil öyrənməkdir. Dil öyrənmək daha çox insanla ünsiyyət və müsbət enerji qazanmaq anlamına gəlir. Dağlarda yaşamaq, genetik müalicə, varlanmaq, bir inanca sahib olmaq, çox işləyib, stressə girmək, dərmandan düzgün istifadə, orqan transplantasiyası, dünyada yaxşı işlər görmək də yaxşı yaşamağın qaydaları sırasındadır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100